25 dekabr 2019 №94 (1679) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan Prezidentini təbrik edirlər

Müxtəlif ölkələrin rəhbər şəxsləri, dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, dünyanın nüfuzlu siyasi xadimləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev doğum günü münasibətilə təbrik edirlər.

TÜRKSOY-un baş katibi Düsen Kaseinov Azərbaycan Prezidentinə təbrik məktubunda həmçinin Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından xoş sözlərini çatdırıb.

"TÜRKSOY-un Daimi Şurasının qərarı ilə 2019-cu ilin türk dünyasında "İmadəddin Nəsimi ili" elan edilməsi, Nəsimi yaradıcılığının üzv ölkələrimizdə və dünyanın müxtəlif dövlətlərində beynəlxalq tədbirlər keçirərək tanıdılması TÜRKSOY ilə Azərbaycan arasındakı mədəni birliyimizin inkişafına xidmət etməkdədir.

Fürsətdən istifadə edərək, TÜRKSOY-un fəaliyyətinə hər zaman göstərdiyiniz diqqət və dəstəyə görə Sizə dərin təşəkkürümü bildirir, bu əlamətdar gündə Zati-alinizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram", – deyə təbrikdə vurğulanır.

## "Nəsimi ili"ndə yeni nəşrlərin təqdimatı keçirildi



Dekabrın 24-də Azərbaycan Milli Kitabxanasında "Nəsimi ili" çərçivəsində ərsəyə gəlmiş yeni nəşrlərin təqdimatı keçirildi. Tədbirdə yazıçı-publisist Hüseynbala Mirələmovun şairin yubileyinə həsr olunmuş "Son səfər" povesti, Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr olunan "İmadəddin Nəsimi. Biblioqrafiya" kitabı və "İmadəddin Nəsimi – 650" elektron məlumat bazası təqdim olundu.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov tədbiri açaraq qeyd etdi ki, Prezident İlham Əliyevin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi və 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında sərəncamlarına uyğun olaraq ölkəmizlə yanaşı, xarici ölkələrdə də silsilə tədbirlər və təqdimatlar keçirilir, kitablar çap edilir və şairin yaradıcılığına yenidən nəzər salınır.

Direktor bildirdi ki, Milli Kitabxananın Mədəniyyət Nazirliyi ilə birgə reallaşdırdığı "Mədəni sərvətlərimizin vətənə qayıdışı" layihəsi çərçivəsində Nəsiminin müxtəlif ölkələrdən 30-a yaxın əlyazmasının surəti Azərbaycana gətirilib və bu istiqamətdə işlər davam etdirilir. Tədbirdə edilən biblioqrafiya və elektron toplu da dahi şairin yubileyinə töhfədir.

Tədbirdə çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev qeyd etdi ki, bu gün ölkə başçısının uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan dünya səviyyəsində nümunəyə çevrilib, regionun qabaqcıl dövlətləri sırasında yer alır. Nazir 2019-cu ilin "Nəsimi ili" elan olunmasını bütövlükdə mədəniyyətimizin uğuru kimi dəyərləndirdi.

davamı səh. 2-də

## Dövlət qayğısı yaradıcı insanların fəaliyyətinə stimul verir

Dekabrın 24-də Milli İncəsənət Muzeyində Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə orden, medal və fəxri adlara layiq görülmüş mədəniyyət və incəsənət xadimlərinə mükafatların təqdimat mərasimi keçirildi.

Tədbirdə çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev ölkəmizdə mədəniyyət və incəsənət sahələrində xidmətləri olan şəxslərə dövlət qayğısından danışdı. Bildirdi ki, əsasını ulu öndər Heydər Əliyevin qoyduğu bu mütərəqqi ənənə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

davamı səh. 2-də

## "Azərbaycan vokalçıları" festivalı rəngarəng proqramla yadda qaldı

Ölkəmizdə ilk dəfə keçirilən "Azərbaycan vokalçıları" festivalı (17-24 dekabr) çərçivəsində bir-birindən maraqlı proqramlar təqdim edildi.

Dekabrın 21-də Beynəlxalq Muğam Mərkəzində keçirilən konsertdə səhnə gənc vokalçıların ixtiyarına verilmişdi. Proqramda Asəf Zeynallı adına Musiqi Kollecinin, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin, Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5№-li Respublika xüsusi internat məktəbinin tələbə və şagirdləri çıxış etdilər.



Konsertdə Azərbaycan, Avropa və rus klassik vokal nümunələri səsləndirildi. M.Maqomayev, Ü.Hacıbəyli, F.Əmirov, T.Quliyev, P.Bulaxov, V.A.Motsart kimi bəstəkarların mövzu baxımından bir-birindən fərqli əsərləri tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Beynəlxalq Muğam Mərkəzində keçirilən daha bir konsertdə Azərbaycan Televiziyası və Radiosunun Cahangir Cahangirov adına Xor kollektivi (bədii rəhbər Şəhla Ələkbərova) çıxış etdi.

davamı səh. 3-də

## Cəfər Cabbarlı adına...

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində yeni ekspozisiyanın açılışı və mədəniyyət ocağının 85 illiyinə həsr olunmuş tədbir keçirildi.

Mərasimdə Prezident İlham Əliyevin sərəncamı ilə böyük dramaturq və ictimai xadim Cəfər Cabbarlının 120 illik yubileyi çərçivəsində muzeydə Cabbarlı ekspozisiyasının yaradılması təqdirəlayiq hal kimi dəyərləndirildi.

səh. 3

## Şirvan şəhərində vətəndaşların qəbulu

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, dekabrın 24-də Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev Şirvan şəhərində vətəndaşlarla görüşüb.

səh. 3

## Üç axşam opera zövqü

"Qonşuda bişər, bizə də düşər" məsəli olmasın, amma bu dekabrda Azərbaycan operasevərləri Rusiyada başa çatmaqda olan "Teatr ili" və 100 yaşı hələ gələn mövsüm tamam olacaq Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının yubileyi münasibətilə üç axşam əsl sənət zövqü yaşadı.

Dekabrın 17-dən 19-dək "Sankt-Peterburq Opera" Rusiya Dövlət Kamera Musiqili Teatrı Bakıda qastrol səfərində idi. Qastrol proqramından söz açmazdan öncə Rusiya opera teatrları arasında ən cavan kollektivlərdən sayılan qonağımız barədə qısa məlumat verək.

"Sankt-Peterburq Opera" 1987-ci ildə yaranıb. Tanınmış rejissor Yuri Aleksandrov müsahibələrində bu teatrı cəmiyyətin yeni yaradıcı ideyalara tələbatını ödəmək məqsədilə qurduğunu deyir. Həqiqətən də, o dövrün iqtisadi böhran illərindəki çətinliklərə baxmayaraq, yaradıcı laboratoriya kimi nəzərdə tutulmuş teatr əvvəlcə şəhərdə, sonra ölkədə və daha sonra xaricdə "canlı opera teatrı", "axtarış teatrı" olaraq tanındı, sevildi və peşəkar dövlət teatrına çevrildi.



davamı səh. 5-də



## Çövkən milli oyunu üzrə "Prezident kuboku" turnirinə yekun vurulub

Dekabrın 24-də Binə Atçılıq Mərkəzinin qapalı manejində çövkən milli oyunu üzrə "Prezident kuboku" turnirinin final matçı və üçüncü yer uğrunda qarşılaşma keçirilib. Finalda "Buta Golden" komandasını 3:0 hesabı ilə məğlubiyyətə uğradan "Omar" klubu ilk dəfə kuboka sahib olub.

Mədəniyyət Nazirliyinin və Azərbaycan Respublikası Atçılıq Federasiyasının dəstəyi ilə keçirilən "Prezident kuboku" turnirinə dekabrın 13-də start verilmişdi.

səh. 4

## Əminə Dilbazinin 100 illiyinə həsr olunmuş elmi sessiya

Azərbaycan xoreoqrafiya məktəbinin tanınmış nümayəndəsi, görkəmli rəqs ustası, Xalq artisti Əminə Dilbazinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq Bakı Xoreoqrafiya Akademiyasında silsilə tədbirlər keçirilib.

Tədbirlərdən biri də "Milli xoreoqrafiya sənətinin görkəmli ustadı" mövzusunda elmi sessiyadır.

səh. 3

## "Unudulmayanlar"da xanəndə Əbülfət Əliyev anılıb

Beynəlxalq Muğam Mərkəzinin "Unudulmayanlar" layihəsinin növbəti tədbiri məşhur xanəndə, Xalq artisti Əbülfət Əliyevə həsr olunub.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi xanəndənin yaradıcılığı haqqında ətraflı məlumat verib.

Xalq artistləri – tarzənlər Vamiq Məmmədəliyev və Möhlət Müslümov sənətkarla bağlı xatirələrini bölüşüb, sənət dünyasından söz açıblar. Gənc xanəndələrin ifasında da xalq mahnıları və muğamlar səslənib.

səh. 3

## Nəsimi irsi səhnə layihələrində

Yola salmağa hazırlaşdığımız "Nəsimi ili" böyük şairin həyat və yaradıcılığına münasibətdə maraqlı sənət layihələri ilə yadda qalacaq.

Teatrlarımız da Nəsimi poeziyasını səhnəyə daşımağa, ona dramaturji material kontekstindən baxmağa cəhd etdilər. Bu sənət cəhdlərinin bəzisi Nəsimiyə uzaq, tamaşaçıya yad olsa da, hər halda, istənilən çəkilən zəhmətə diqqət olaraq qeyd olunmalıdır. Ən azı o yaradıcı fəaliyyətin içində Nəsimiyə duyulan böyük eşq varsa...

davamı səh. 5-də

### Xalq rəssamı Kamil Nəcəfzadənin yubileyinə həsr edilmiş sərgi



səh. 5

### Bədii və animasiya filmlərinin ssenari müsabiqəsinin nəticələri gələn ay elan olunacaq

səh. 8



### Moskvada Azərbaycan bəstəkarlarının əsərləri səslənib

səh. 8

“Bakı Prosesi” bu gün BMT tərəfindən çox önəmli, bəlkə də ən vacib platforma kimi tanınır. Bu proses çərçivəsində əməkdaşlıq daha yeni pilləyə qalxdı. Eyni zamanda, Bakıda ənənəvi olaraq Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Humanitar Forumu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və “Bakı Prosesi” çərçivəsində aparılan işlər dini və milli zəmində olan ixtilafların azaldılmasına xidmət göstərir. Bu gün Azərbaycanın rolu artıq birmənalı şəkildə tanınır və təqdir edilir.

# “Bakı Prosesi” mədəniyyətlərarası dialoq üzrə ən vacib platformadır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində deyib.

Dövlət başçısı vurğulayıb ki, Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu unikal təcrübə artıq bir çox ölkələr tərəfindən öyrənilir: “Ona görə biz bu siyasəti apararkən hesab etdik ki, əgər geniş beynəlxalq əməkdaşlıq bu istiqamətdə qurularsa, bu, həm bizim üçün daha yaxşı olacaq, həm də biz regionda mövcud olan vəziyyətə də müsbət təsir göstərəcəyik.

İkincisi, biz hesab etdik ki, Azərbaycan bu missiyanı öz üzərinə götürə bilər - təkcə tarixi keçmişinə görə yox, eyni zamanda, bugünkü siyasətinə görə. Çünki bizim siyasətimiz əməkdaşlığa hesablanıb”.

Prezident qeyd edib ki, Azərbaycan 2008-ci ildə mədəniyyətlərarası dialoq təşəbbüsü ilə çıxış edəndə dünyada tendensiyalar mənfi istiqamətə gedirdi. Bu gün də dünyada, o cümlədən Avropada ayrı-seçkilik meyilləri güclənir. Ancaq biz bunun təzahürlərini təxminən 10 il bundan əvvəl görməyə başladıq və “Bakı Prosesi” adlandırılan layihəni, siyasi təşəbbüsü irəli sürdük: “Dünya miqyasında Azərbaycan qədər bu məsələyə diqqət yetirən və nəticə əldə edən ikinci ölkə tapmaq çətindir. Bunu təkcə mən demirəm, bunu Azərbaycanda milli-mənəvi dəyərlər, dinlərarası dialoq sahələrində əldə edilmiş uğurları tanınmış və aparıcı siyasi və dini liderlər qeyd edir”.

Prezident onu da diqqətə çatdırıb ki, Azərbaycan müsəlman dünyasının ilk ölkəsidir ki, Vatikanda İslam tarixinə, mədəniyyətinə aid sərgi keçirib: “Biz müsəlman dəyərlərinin Avropada təbliğ edilməsində çox böyük rol oynayırıq. Təsadüfi deyil ki, müsəlman ölkələrinin rəhbərləri bu sahədəki fəaliyyətimizə yüksək qiymət verirlər. Eyni zamanda, bu yaxınlarda dini liderlərin Bakıda keçirilən Zirvə görüşündə iştirak etmiş Moskva və bütün Rusiyanın patriarxı Kirill, bir neçə il bundan əvvəl ölkəmizdə rəsmi səfərdə olmuş Roma Papası Fransisk də bu sahədə Azərbaycanda görülən işləri yüksək qiymətləndirib. Bunu deyən dini liderlərdir. Bunu deyən adamların arxasında milyardlarla insan var”.

Dövlət başçısı daha sonra deyib: “Hesab edirəm ki, bizim yaratdığımız platforma bu gün yüksək səviyyədə qiymətləndirilir və buna ehtiyac var. Bütün bu forumlardan sonra mənim ikitərəfli görüşlər əsnasında yəqin etdiyim odur ki, bütün iştirakçılar çox böyük minnətdarlıqla bizə müraciət edərək deyirlər ki, nə yaxşı ki, siz bu işi öz üzərinizə götürmüsünüz. Ona görə, yenə də deyirəm, bu, ilk növbədə, bizim özümüzə lazımdır, regionumuza lazımdır, dünyaya lazımdır”.

Qeyd edək ki, Prezident İlham Əliyev jurnalistlərə müsahibəsində 2019-cu ildə ölkəmizin inkişaf istiqamətləri, sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlər, regional və qlobal miqyasda Azərbaycanın atdığı addımlar və əldə edilən diplomatik nəticələr, Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri barədə danışıb. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı suala cavabında dövlət başçısı vurğulayıb ki, Ermənistan rəhbərliyinin danışıqlarda qeyri-konstruktiv mövqe tutması və beynəlxalq vasitəçilərin işğalçı ölkəyə təsir göstərməməsi səbəbindən 2019-cu il danışıqlar prosesi üçün itirilmiş ildir.

Ölkədə aparılan struktur və kadr islahatları barədə danışan Prezident İlham Əliyev vurğulayıb ki, bu, genişmiqyaslı islahatların tərkib hissəsidir. Dövlət başçısı həmçinin növbədənkənar parlament seçkiləri, iqtidar-müxalifət münasibətləri barədə də fikirlərini bölüşüb.

# Dövlət qayğısı yaradıcı insanların fəaliyyətinə stimul verir

*əvvəli səh. 1-də*

Bu gün mədəniyyət işçilərinə ayrılan diqqət bütövlükdə Azərbaycan mədəniyyətinə diqqətdir: “Mədəniyyətimiz dünyada tanınır, təbliğ edilir, beynəlxalq qurumlar səviyyəsində qəbul olunur. Bunlar dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahənin inkişafına göstərdikləri diqqət və qayğı sayəsində mümkün olub. Mükafatların 24 dekabr tarixində – Prezident İlham Əliyevin doğum günündə təqdim edilməsi ikiqat bayram ovqatı yaradır. Bu gün Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan dünya səviyyəsində nümunəyə çevrilib, regionun qabaqcıl dövlətləri sırasındadır. Dövlət tərəfindən göstərilən qayğı yaradıcı insanların fəaliyyətinə stimul verir. Uzun illərdir cənab Prezidentin apardığı siyasətin avanqardında mədəniyyət xadimləri dayanır. Hər il dövlət başçısının sərəncamları ilə müxtəlif mədəni tədbirlər keçirilir, mədəniyyətimizin inkişafına töhfələr verən insanlar mükafatlandırılır”.

Nazir diqqətə çatdırdı ki, bu gün mükafatlandırılan şəxslərin arasında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının xadimləri də yer alır. Teatra dövlət statusunun verilməsinin 100 illiyi münasibətilə cənab Prezident teatr xadimlərini müxtəlif dövlət mükafatları ilə təltif edib. Təltif edilənlər sırasında həm də musiqi xadimləri var.

Əbülfəs Qarayev qeyd etdi ki, hər il ölkə başçısının ad günü ərəfəsində milli-mədəni irsimizin dəyərli nümunəsi olan çövkən oyunu üzrə “Prezident kuboku” turniri keçirilir. Bu il də Şəkidəki Respublika Milli Atüstü Oyunlar Mərkəzində, Binə Atçılıq Mərkəzində yarışlar keçirilib.

Nazir bildirdi ki, bu il bütün sahələrdə olduğu kimi, ölkəmizin mədəni həyatında da mühüm hadisələrlə yadda qalıb: “May ayında V Dünya Mədəniyyətlərarası Dialoq Forumu, iyul ayında UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası Bakıda keçirilib. UNESCO-nun mötəbər tədbirində Şəki şəhərinin tarixi mərkəzi ilə birgə Şəki Xan sarayı Dünya irs siyahısına daxil edilib. Bütün bunlar müstəqilliyimizin bizə bəxş etdiyi imkanlar nəticəsində mümkün olub. İnanırıq ki, hörmətli Prezidentimizin uğurlu siyasəti nəticəsində biz bu tədbirləri doğma Şuşa və Qarabağımızda da qeyd edə biləcəyik”.

Nazir onu da qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz 20 il əvvəlkindən daha fərqli, daha sürətlə inkişaf edir: “Bu cür siyasət aparmaq yalnız böyük şəxsiyyətlərə məxsusdur. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti, ölkəmizi dünya miqyasında tanıtması imkan verir ki, biz bu gün ölkəmizin uğurlarından, dünya miqyasındakı nailiyyətlərindən söz açaq. BMT may ayında Bakıda keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumunu dünya üzrə ilin möhtəşəm hadisəsi kimi dəyərləndirib. Bu o deməkdir ki, Azərbaycan dünya miqyasında öz tarixi mövqeyini qazana bilib”.

Sonra mükafatlar təqdim edildi.

Xalq artistləri Nurəddin Mehdixanlı, Ramiz Məlik və Yalçın Adıgözəlova “Şöhrət” ordeni, müğənnilər Tünzalə Ağayeva, Miri Yusif, Röya və aktyor Kazım Abdullayevə “Xalq artisti”, Mətləb Abdullayev, Əminə Babayeva, Rəşad Bəxtiyarov və Elnar Qarayevə “Əməkdar artist” fəxri adları, Məsmə Aslanqızı, Mətanət Atakişiyeva, Münəvvər Əliyeva, Rafael Həsənov, Elxan Quliyev, Elnur Məmmədov, Hacıbaba Məmmədova “Tərəqqi” medalı, Bəsti Cəfərova, Məleykə Əsədova, Laləzar Mustafayeva və Ramiz Novruza “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” təqdim edildi.



Nurəddin Mehdixanlı, Ramiz Məlik, Yalçın Adıgözəlov və digər sənətçilər Prezident İlham Əliyevin doğum günündə onlara təqdim edilən mükafatın ikiqat bayram olduğunu və böyük məsuliyyət hissi yaratdığını vurğuladılar. Ölkəmizdə mədəniyyət işçilərinə göstərilən diqqət və qayğıdan söz açaraq ölkə başçısına minnətdarlıqlarını ifadə etdilər.

Nazir bir daha ölkə rəhbərini doğum günü münasibətilə mədəniyyət işçiləri adından təbrik etdi. Vurğuladı ki, Azərbaycan dövləti və xalqı heç zaman öz mədəniyyət xadimlərinə biganə olmayıb. Bu ilin mart ayında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bir qrup mədəniyyət və incəsənət xadimi ilə görüşü keçirildi. Bu görüşdən sonra mədəniyyət sahəsində çalışanlara dövlət qayğısı daha da artırıldı, bəzi teatrların statusunda dəyişiklik oldu. Əksər teatrlara, habelə yaradıcılıq ittifaqlarına vəsait ayrıldı. Nazir dedi ki, gələcəkdə teatrla, sənətin digər sahələri ilə bağlı yeni proqramlar hazırlanacaq, yeni layihələr reallaşdırılacaq.

Sonda Əbülfəs Qarayev ölkəmizin tərəqqisi və təbliğində mədəniyyət və incəsənət xadimlərinə uğurlar arzuladı və hər kəsi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik etdi.

**LALƏ**

## Dərbənd Azərbaycan teatrında “Vəfalı Səriyyə”

Dərbənd Azərbaycan Dram Teatrında görkəmli dramaturq Cəfər Cabbarlının pyesi əsasında hazırlanmış “Vəfalı Səriyyə” tamaşası təqdim edilib. Tamaşaya Azərbaycanın Əməkdar artisti Sərvər Əliyev quruluş verib.



Təqdimatdan əvvəl çıxış edən teatrın rəhbəri Firdovsi Əsgərov qeyd edib ki, tamaşada gənc aktyorlar oynayır. O, əsər haqqında məlumat verərək bildirib ki, 1915-ci ildə yazılmış pyesdə cəmiyyətdəki qeyri-bərabərlikdən bəhs edilir, qadınların hüquqlarının qorunması problemi önə çəkilir.

## “Uğurlarımızla 2020-yə”

“Abşeron” Gənclərin İnkişafı İctimai Birliyinin dəstəyi ilə Şuşa Dövlət Musiqili Dram Teatrında Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş sərgi-tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə gənc rəssamların əsərlərindən ibarət sərgi ilə tanış olublar.



Layihənin rəhbəri Elnurə İsgəndərova Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əhəmiyyətindən danışıb. Tədbir təşkilatçılarından Aygün İsgəndərova bu il gənc rəssamların əsərlərindən ibarət 30-dan artıq sərginin keçirildiyini bildirib.

Mədəniyyət və İncəsənət Universitetinin professoru, Xalq rəssamı Arif Əziz belə tədbirlərin gənc rəssamların inkişafına müsbət təsir etdiyini bildirib.

“Abşeron” Gənclərin İnkişafı İctimai Birliyinin sədri Qalib Əzizov həyata keçirdikləri layihələrdən bəhs edib.

Sərgidə 150 rəssamın 200-dək əsəri nümayiş olunub. İl ərzində fərqlənmiş gənc rəssamlar İctimai Birlik tərəfindən diplom və mükafatlarla təltif olunub.

# “Nəsimi ili”ndə yeni nəşrlərin təqdimatı keçirildi

*əvvəli səh. 1-də*

Əbülfəs Qarayev ölkə rəhbərliyi səviyyəsində Nəsimi yaradıcılığına daim diqqət göstərildiyini diqqətə çatdırdı. Bildirdi ki, 1973-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyi UNESCO səviyyəsində qeyd olunub. Ümummilli liderin təşəbbüsü ilə Bakıda böyük şairin heykəli ucaldılıb, haqqında bədii film çəkilib, Elmlər Akademiyasının Dilçilik İnstitutuna, paytaxtın rayonuna şairin adı verilib, əsərləri kütləvi tirajla çap olunub, yaradıcılığı tədqiq edilib. Müstəqillik dövründə Prezident İlham Əliyevin imzaladığı sərəncamlar şairin əsərlərinin çapında, dünyada təbliğində mühüm rol oynayıb.

Sonra İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr olunan qısa film nümayiş etdirildi.

AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli bildirdi ki, bu il Nəsimi ilə bağlı çap olunan əsərlər içərisində tanınmış yazıçı Hüseynbala Mirələmovun “Son səfər” povesti xüsusi yer tutur. Nəşr Nəsimi ilə bağlı yeni tarixi mərhələnin bədii nümunəsi kimi olduqca əhəmiyyətlidir. Əsərdə H.Mirələmovun Nəsimi mövzusuna ənənəvi yanaşmadan fərqli olaraq, azərbaycançılıq mövqeyindən müraciət etməsi, böyük sənətkarı hər cür dini-ideoloji baxışdan uzaq, həyati şəkildə, təbii insan obrazı kimi oxuculara çatdırması cəsarətli addım hesab olunmalıdır. Əsərdə Nəsimi sevgisi və nifrəti ilə zəngin mənəviyyata malik sadə və müdrik bir insan kimi oxuculara təqdim olunub. Yazıçı Nəsiminin həyat və fəaliyyətinin hürufilik mücahidliyi dövrünü deyil, sadə və kamil insan həyatı yaşadığı mərhələsini qələmə alıb.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov çıxışında Hüseynbala Mirələmovun yazıçı dilini onun bədii təfəkkürünün zənginliyinin təbii göstəricisi kimi qiymətləndirdi. Yazıçını müasir Azərbaycan ədəbiyyatının ən məhsuldar simalarından biri kimi səciyyələndirən akademik onun nəsr, dramaturgiya və publisistikasında qaldırılan sosial-mənəvi problemlərin yalnız Azərbaycanda deyil, əsərlərinin tərcümə olunub yayıldığı ölkələrdə də böyük maraq doğurduğunu, Azərbaycan ədəbiyyatı, ədəbi-ictimai təfəkkürünün səviyyəsi barədə aydın təsəvvür yaratdığını vurğuladı.



Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev bildirdi ki, Hüseynbala Mirələmovun yaradıcılığının əsas qayəsini bu günün insanı, onun düşdüyü mürəkkəb sosial-psixoloji vəziyyətlər və ondan optimal çıxış yollarının axtarılıb tapılması təşkil edir. Onun yaradıcılığının mühüm xüsusiyyətləri humanizmi və mütəfəkkir məsuliyyətidir. O, ən mənfi qəhrəmanının belə təbiətindəki insani keyfiyyətləri görür və qiymətləndirir.

Milli Məclisin deputatları Hadı Rəcəbli, “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Səadət Şıxıyeva, Azərbaycan Yazıçılar Birliyinin katibi, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid və AMEA-nın Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Salidə Şərifova, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu, professor Rüstəm Kamal çıxış edərək İmadəddin Nəsiminin ölməz irsindən söz açdılar.

Povestin müəllifi Hüseynbala Mirələmov tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

Milli Kitabxananın Elektron kitabxananın inkişafı şöbəsinin əməkdaşları tərəfindən hazırlanmış “İmadəddin Nəsimi – 650” elektron məlumat bazası şöbənin müdiri Rübabə Səfərova tərəfindən təqdim edildi.

**NURƏDDİN**

## Uşaq musiqi məktəbinin yubileyi

Gəncə Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən Telman Hacıyev adına 2 nömrəli Uşaq musiqi məktəbinin 60 illik yubileyi qeyd olunub.

Regional idarənin rəisi, Əməkdar mədəniyyət işçisi Sənan Hacıyev çıxış edərək yubiley münasibətilə məktəbin pedaqoji kollektivini, şagirdləri təbrik edib, onlara musiqi təhsilində böyük uğurlar arzulayıb. O, mədəniyyətimizə, incəsənətimizə diqqət və qayğı göstərdiklərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib, bu sahədə Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən işlərdən bəhs edib.

Yubiley münasibətilə hazırlanmış konsert proqramı iştirakçılara təqdim olunub.

Sonda məktəbin müəllimlərinə fəxri fərmanlar təqdim olunub.

# Cəfər Cabbarlı adına...

## Dövlət Teatr Muzeyində böyük dramaturqun irsi ilə bağlı yeni ekspozisiya təşkil edilib

Dekabrın 20-də Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində yeni ekspozisiyanın açılışı və mədəniyyət ocağının 85 illiyinə həsr olunmuş tədbir keçirildi.

Əvvəlcə Mədəniyyət naziri Əbülfəs Qarayev və qonaqlar yeni yaradılan ekspozisiya ilə tanış oldular.

Mərasimdə çıxış edən Əbülfəs Qarayev Dövlət Teatr Muzeyinin fəaliyyətindən söz açdı. Bildirdi ki, muzey 147 yaşlı milli teatrımızın tarixini özündə əks etdirən eksponatlarla zəngindir.

Nazir Prezident İlham Əliyevin sərəncamı ilə böyük dramaturq və ictimai xadim Cəfər Cabbarlının 120 illik yubileyi çərçivəsində muzeydə Cabbarlı ekspozisiyasının yaradılmasını təqdirəlayiq hal kimi dəyərləndirdi. Vurğuladı ki, dövlət başçısının sərəncamı, keçirilən yubiley tədbirləri Cabbarlı irsinin əbədiyaşarlığını bir daha sübut edir.

Qeyd edildi ki, ulu öndər Heydər Əliyev hər zaman Cəfər Cabbarlı yaradıcılığına diqqət göstərib, onun xatirəsinin əbədiləşdirilməsi sahəsində böyük işlər həyata keçirib. Bu gün bu siyasət Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

Nazir C.Cabbarlının Bakıdakı ev-muzeyinin də bərpasının reallaşacağına ümidvar olduğunu qeyd etdi, həmçinin ədibin Xızıdakı ev-muzeyində bərpa işlərinin davam etdirildiyini diqqətə çatdırdı: “Yubiley ili çərçivəsində



muzeydə Cabbarlı guşəsinin istifadəyə verilməsi böyük ədibin həyat və fəaliyyətinin gənc nəslə təbliğ olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda teatrlarımız tərəfindən həyata keçirilən “Cəfər Cabbarlı həftəsi” Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətləri olan dramaturqun xatirəsinə ehtiramdır. Cabbarlının pyesləri bu gün yeni quruluşda, çağdaş təfəkkür işığında təqdim olunur”.

Nazir çıxışının sonunda muzeyin əməkdaşlarını əlamətdar yubiley münasibətilə təbrik etdi, uğurlar arzuladı.

Akademik Nizami Cəfərov çıxış edərək Cəfər Cabbarlının Azərbaycan ədəbiyyatında rolu, ana dilinin qorunmasında göstərdiyi xidmətlərdən söz açdı.

Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru Sevinc Mikayılova, C.Cabbarlının ev-muzeyinin direktoru Qəmər Seyfəddinqızı ekspozisiyanın hazırlanmasında əməyi olanlara təşəkkür etdilər.

Çıxışlardan sonra Azərbaycan Dövlət Pantomima Teatrı aktyorlarının ifasında C.Cabbarlının əsərləri əsasında hazırlanmış kompozisiya təqdim edildi.

Daha sonra muzeyin yubileyi münasibətilə əməkdaşlara Mədəniyyət Nazirliyinin fəxri diplomları təqdim olundu.

Qeyd edək ki, yeni tərtibatla hazırlanmış ekspozisiya sahəsində cari təmir və möhkəmləndirmə işləri aparılıb, müasir, interaktiv, rəqəmsallaşdırılmış bədii tərtibat işləri həyata keçirilib. Burada ədibə məxsus şəxsi əşyalar, onun həyat və yaradıcılığına aid eksponatlar, əsərlərinin səhnə təcəssümünü əks etdirən dekorasiya və geyim eskizləri, əlyazmalar, fotolar, tamaşalardan və filmlərdən fraqmentlər virtual olaraq sərgilənir.

Təqdim olunan materiallarda C.Cabbarlının Azərbaycan ədəbiyyatına, teatrına, kinosuna, musiqisinə verdiyi töhfələr, onun ictimai fəaliyyəti tam əhatə olunur.

Xatırladaq ki, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi 1934-cü ildə yaradılıb. Hazırda muzeyin fondunda 137 mindən artıq eksponat qorunur. Bunların sırasında teatr korifeylərinin həyat və yaradıcılığını əks etdirən şəxsi əşyalar, əlyazmalar, tamaşalara çəkilmiş dekorasiya və geyim eskizləri, foto və neqativlər və s. var.

Azərbaycan mədəniyyətində və incəsənətində xüsusi xidmətləri olan bir çox görkəmli sənətkarların, o cümlədən Adil İsgəndərov, İsmayıl Hidayətzadə, Mehdi Məmmədov, Tofiq Kazımov, Sidqi Ruhullanın şəxsi arxivləri ilə birgə C.Cabbarlının şəxsi arxivinin böyük bir hissəsi məhz Teatr Muzeyində qorunur.

**L.AZƏRİ**

# Əminə Dilbazinin 100 illiyinə həsr olunmuş elmi sessiya

Azərbaycan xoreoqrafiya məktəbinin tanınmış nümayəndəsi, görkəmli rəqs ustası, Xalq artisti Əminə Dilbazinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq Bakı Xoreoqrafiya Akademiyasında silsilə tədbirlər keçirilib. Tədbirlərdən biri də “Milli xoreoqrafiya sənətinin görkəmli ustadı” mövzusunda elmi sessiyadır.



Sessiyadan öncə BXA-nın tam orta məktəbinin şagirdləri konsert proqramı ilə çıxış ediblər. Xalq artisti Yusif Qasımov, Əməkdar artist Səbinə Qasımova, Əməkdar mədəniyyət işçisi Lyudmila Qutlyanskaya, Əməkdar müəllim Pullumb Ağalıyay, müəllimlər Yekaterina Mustafayeva və Pərvin Nəcəfovanın quruluş verib hazırladıqları proqramda milli və klassik rəqs nömrələri yer alıb.

Sonra Əminə Dilbaziyə həsr olunmuş sərgi açılıb. Sərgidə sənətkara məxsus səhnə geyimləri, rəqqasənin təsvir olunduğu rəsm və xalça, haqqında yazılmış kitablar, mükafatları, foto materiallar və s. nümayiş etdirilib.

Elmi sessiyada BXA-nın Sənətşünaslıq kafedrasının müdiri, Əməkdar incəsənət xadimi, professor Rafiq Sadıqov, Baletmeyster kafedrasının müdiri, professor Lyudmila Həsənova, Bakı Musiqi Akademiyasının elmi işlər üzrə prorektoru, Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə, BMA-nın elmi tədqiqat laboratoriyasının elmi işçiləri Rauf Bəhmənli, Nigar Bayramova, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının magistrantı Emil Ağayev görkəmli sənətkarın yaradıcılıq fəaliyyətinə dair məruzələrlə çıxış ediblər.

BXA-nın İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Əbülfəz Babazadənin moderatorluğu ilə keçən elmi sessiyada sənətkarın qızı – Florida Texnoloji İnstitutunun Fortepiano kafedrasının professoru, “Florida Keys” Beynəlxalq Musiqi Müsabiqəsinin təsisçisi və art direktoru Pərvin Muradova-Dilbazi, xalq artistləri Yusif Qasımov, Cəmilə Bayramova, Roza Cəlilova, eləcə də Ə.Dilbazinin yaratdığı əfsanəvi “Çinar” rəqs ansamblının üzvü Mədinə İsmayılova sənətkar haqqında xatirələrini bölüşüblər.

# “Unudulmayanlar”da xanəndə Əbülfət Əliyev anılıb

Beynəlxalq Muğam Mərkəzinin “Unudulmayanlar” layihəsinin dekabrın 20-də gerçəkləşən növbəti tədbiri məşhur xanəndə, Xalq artisti Əbülfət Əliyevə həsr olunub.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi unudulmaz xanəndənin yaradıcılığı haqqında ətraflı məlumat verib, onun muğam sənətimizin inkişafında xidmətlərindən bəhs edib.

Bildirilib ki, 1926-cı ildə Şuşada dünyaya göz açan Əbülfət Əliyevin uşaqlıq illəri Cıdır düzü, Bazarbaşı məkanlarında təşkil olunan məclislərin əhatəsində keçib. O, Seyid Şuşinski, Xan Şuşinski kimi sənətkarları ilk dəfə bu məclislərdə görüb, onların bənzərsiz ifalarına qulaq asıb. Sonradan Bakıya gələrək Azərbaycan Dövlət Filarmoniyasının solisti olub və o dövrün tanınmış




müğənniləri ilə birlikdə konsertlər verib. Görkəmli xanəndənin repertuarında “Dinə bilmədim”, “Bu qala, daşlı qala”, “Ay Pəri”, “Endim bulaq başına”, “Bülbüllər gəzər bağı”, “Tel nazik”, “Saçları burma”, “Gəl-gəl”, “Xal yanağında”, “Qara gözlüm” kimi ümumilikdə 400-dən artıq xalq və bəstəkar mahnısı yer alıb. 1957-ci ildə ilk dəfə Opera və Balet Teatrının səhnəsinə çıxan Ə.Əliyev Məcnun obrazının özünəməxsus şəkildə ifası ilə də sənət tariximizə düşüb, həmçinin Kərəm, Şah İsmayıl rollarını ustalıqla ifa edib.

Gecədə Əbülfət Əliyevə həsr edilmiş videoçarx nümayiş edilib. Xalq artistləri – tarzənlər Vamiq Məmmədəliyev və Möhlət Müslümov sənətkarla bağlı xatirələrini bölüşüb, sənət dünyasından söz açıblar. Gənc xanəndələrin ifasında xalq mahnıları və muğamlar səslənib.

# Mədəniyyət nazirinin birinci müavini Şirvan şəhərində vətəndaşlarla görüşüb

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, dekabrın 24-də Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev Şirvan şəhərində vətəndaşlarla görüşüb.

Qəbuldan öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə tər çiçək dəstələri düzülüb.



Şirvan şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbulda vətəndaşlar tərəfindən Heydər Əliyev Mərkəzinin əməkdaşlarının ixtisasartırma kurslarına və təcrübə mübadiləsinə göndərilməsi, Şirvan şəhər Mərkəzi Kitabxanasına uşaq ədəbiyyatının verilməsi, Şirvan Dövlət Rəsm Qalereyasının fondunun yenilənməsi, şəhər Uşaq musiqi məktəbində saz və qanun alətlərinin tədrisi üzrə siniflərin açılması, şəhər Tarix-Diyarşünaslıq Muzeyində ekspozisiyanın yenidən qurulmasına köməklik göstərilməsi, işlə təmin olunma və digər məsələlərlə bağlı müraciətlər səsləndirilib.

Vətəndaşlar tərəfindən səsləndirilən bütün müraciətlər dinlənilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həllini tapıb. Bəzi müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həll olunması məqsədilə müvafiq tapşırıqlar verilib.

# LOLA audiovizual yayım sisteminin təqdimatı keçirilib

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) LOLA (LoLa Low Latency Audiovisual Streaming System) audiovizual yayım sisteminin təqdimatı olub.

Təqdimat Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İnformasiya Texnologiyaları İnstitutu, Bakı Musiqi Akademiyası və Avropa Elm və Təhsil Şəbəkələri Assosiasiyasının (GENAT) birgə təşkilatçılığı ilə reallaşıb.

BMA-nın rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli çıxış edərək yeni sistem haqqında məlumat verib. Bildirib ki, bu sistem real zamanda musiqi nümayişlərini təmin etmək məqsədi daşıyır və bir-birilərindən uzaq məsafədə olan ifaçı və musiqiçiləri onlayn bağlantı vasitəsilə bir araya gətirir. Sistem Avropa İttifaqının “Şərq tərəfdaşlığı” proqramı üzrə “EaPConnect” (Eastern Partnership Connect) layihəsi çərçivəsində reallaşıb.

Təhsil nazirinin müavini Firudin Qurbanov texnologiyanın əhəmiyyətini vurğulayıb. Bildirib ki, bu sistem vasitəsilə ustad dərslərinin öyrənilməsi də əhəmiyyət kəsb edir: “Biz bu gün distant təhsildə kifayət qədər təcrübə əldə etmişik. Təhsil Nazirliyi ilk gündən bu layihəni dəstəkləyib. Birinci layihə Estoniya ilə reallaşıb. İnanıram ki, bu istiqamətdə başqa ölkələrlə də səmərəli əməkdaşlıq olacaq”.



AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev layihənin ölkəmizdə tətbiqi istiqamətində işlərin 2015-ci ildə başlandığını deyib. Bildirib ki, hazırda ölkənin 18 universiteti yüksək texnoloji xidmətlərdən istifadə edir. O, layihənin önəmindən bəhs edərək bildirib ki, bu sistem Azərbaycanın intellektual musiqi və mədəniyyətini virtual məkan vasitəsilə təbliğ etməyə geniş imkan yaradacaq.

Sonra LOLA sisteminin təqdimatı olub. Tədbir konsert proqramı ilə davam edib.

# Bəstəkarımızın əsəri Almaniyada səslənib

Almaniyanın Essen şəhərinin aparıcı konsert salonlarından olan “Essen-Rellinghousen”da kamera musiqisi konsertləri təqdim olunub.

Konsertlər çərçivəsində Essen şəhərində ali musiqi təhsili alan istedadlı kontrabas ifaçısı Cavad Cavadzadə tanınmış bəstəkar, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Cəlal Abbasovun solo kontrabas üçün “Münacat 1” əsərini ifa edib.

Konsertlərdə həmçinin Bax, Haydn, Brams, Şuman, Şubert, Maler və Şostakoviç kimi dünya klassiklərinin də kamera-instrumental əsərləri səsləndirilib.

Qeyd edək ki, C.Abbasovun “Münacat 1” əsəri İtaliya, Fransa, Cənubi Koreya, Rusiya, Gürcüstan və başqa xarici ölkələrdə dəfələrlə ifa olunub.

# “Azərbaycan vokalçıları” festivalı rəngarəng proqramla yadda qaldı

*əvvəli səh. 1-də*

Tamaşaçılar xorun ifasında Üzeyir Hacıbəylinin Səməd Vurğunun sözlərinə yazdığı “Ey Vətən”, Səid Rüstəmovun Zeynal Cabbarzadənin sözlərinə bəstələdiyi “Alagöz”, xalq mahnısı “Qoy yarım gəlsin”, Frans Şubertin “Ave Mariya”, musiqisi Cahangir Cahangirovun, sözləri Ənvər Əlibəylinin olan “Xəzər”, A.Zeynallının “Ölkəm” (sözləri C.Cabbarlı) və digər xor üçün yazılmış əsərləri dinlədilər. Konsertdə xorla bərabər solistlər Səidə Manafova, Orxan Nur, Pərviz Verdiyev, Aynur İsgəndərli və xorun birgə çıxışı oldu.

Dekabrın 22-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında musiqi məktəbləri şagirdlərinin konserti olub. Paytaxtın C.Hacıyev adına 3 nömrəli, Ə.Bakıxanov adına 6, Tofiq Quliyev adına 12, Rostropoviçlər adına 21, M.Maqomayev adına 26 və G.Şaroyev adına 35 nömrəli musiqi məktəblərinin şagirdləri öz ifalarını təqdim ediblər.

Həmin gün festival çərçivəsində Azərbaycan Dövlət Akademik Musiqili Teatrı solistlərinin möhtəşəm konserti keçirilib. Əməkdar incəsənət xadimi Fəxrəddin Atayevin rəhbərlik etdiyi orkestr elə ilk dəqiqələrdən zalda xüsusi atmosfer yarada bilib. Konsertdən öncə teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, festivalın bədii rəhbəri, “Mədəniyyət” kanalının direktoru Ramil Qasımov çıxış ediblər. Təqdim olunan proqramda Azərbaycan opera və operetta incilərinin parlaq nümunələri yer alıb.

Dekabrın 23-də festival Akademik Opera və Balet Teatrında davam edib. Konsertdə Azərbaycan Televiziyası və Radiosunun Niyazi adına Simfonik Orkestrinin (bədii rəhbər və baş dirijor Əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyov) müşayiəti ilə teatrın aparıcı solistlərinin ifaları təqdim olunub.




“Azərbaycan vokalçıları” festivalının təntənəli bağlanış mərasimi dekabrın 24-də Heydər Əliyev Mərkəzində keçirilib. Mərasimdə Azərbaycan vokal sənəti ulduzlarının ifasında Azərbaycan və dünya bəstəkarlarının əsərləri səsləndirilib.

**LALƏ**

## ƏSA teatrının "And"ı

Dekabrın 23-də Akademik Milli Dram Teatrında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə ƏSA teatrı tərəfindən J.B.Molyerin "Xəsis" əsərinin motivləri əsasında hazırlanmış "And" tamaşasının premyerası olub. Dövlət və hökumət rəsmilərinin qatıldığı tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Premyeradan əvvəl Leyla Əliyeva teatrın foyesində açılan sərgi ilə tanış olub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin əməkdaşlığı çərçivəsində hazırlanmış və görmə imkanları məhdud şəxslərin şeirlərindən ibarət "Zülməti dələn işıq" kitabı haqqında məlumat verilib. Kitabda 18 müəllifin 100-ə yaxın şeiri toplanıb. Həmçinin görmə imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyasına dəstək məqsədi daşıyan "Danışan kitab" və "Danışan rəng" layihələri nümayiş olunub.



Nazir Sahil Babayev diqqətə çatdırıb ki, ƏSA teatrı ilə əməkdaşlıq çərçivəsində hələ ötən ilin dekabrında "Göy quş" tamaşasının, "Nəsimi ili"nə töhfə olaraq bu ilin oktyabr ayında isə "Nəsimi" antreprizasının uğurlu təqdimatları olub.

ƏSA teatrının "And" tamaşası izləyicilər tərəfindən maraqla qarşılanıb. Quruluşçu rejissoru Nihad Qulamzadə, musiqi tərtibatçısı Nicat Qulam, səhnə və geyim tərtibatçısı Viktoriya Lerman olan tamaşada iştirak edən 14 aktyordan 9 nəfəri əlilliyi olan şəxslərdir. Rolları Elşən Əsgərov, Səmayə Ağayarova, Rafael Quliyev, Könül Şahbazova, Elsevər Rəhimov, Aysel Feziyeva, İmran Lalayev, Cəmilə Məmmədli, Elvin Mirzəyev, Rəsul Zəkiyev, Günay Məmmədova, Orxan Əliyev, Fərid Əliyev və Bəhram Rəhimli ifa ediblər.

## Teatrşünas Məmmədşah Atayevin xatirəsi anılıb

Teatr sənətimizin öyrənilməsi və təbliğində mühüm xidmətləri olmuş tanınmış alim Məmmədşah Atayevin 80 illiyi münasibətilə dekabrın 20-də Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ) anım tədbiri keçirilib.

ATXİ-nin sədri, Xalq artisti Azər Paşa Nemətov çıxış edərək teatrşünas alimin həyat və fəaliyyətindən söz açıb.

Bildirib ki, 1939-cu il dekabrın 20-də anadan olan Məmmədşah Atayev 1968-ci ildə Azərbaycan Dövlət Universitetinin (hazırkı BDU) Filologiya fakültəsini bitirib. O, Akademik Milli Dram Teatrında aktyor, truppa müdiri işləyib və özünün şəxsi təşəbbüsü ilə təşkil etdiyi arxiv-muzeyə rəhbərlik edib. "Cəlil Məmmədquluzadə əsərləri Azərbaycan səhnəsində" mövzusunda dissertasiya müdafiə edən M.Atayev bu mövzuda monoqrafiyanın, 100-dək məqalənin müəllifidir. İkicildlik "Akademik Milli Dram Teatrının fotosalnaməsi"ni toplayaraq tərtib edib.



Xalq artistləri Hacı İsmayılov, Rafiq Əzimov və digər şəxslər çıxış edərək alimin xidmətlərindən söz açıb, onunla bağlı xatirələrini bölüşüblər.

## Bakı və Moskvanın mədəniyyət müəssisələri arasında əməkdaşlıq

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin nümayəndə heyəti Moskvada bir sıra görüşlər keçirib.

Baş idarənin rəisi Cəlil Məlikovun rəhbərlik etdiyi nümayəndə heyəti səfər çərçivəsində "Vdoxnoveniye" Mədəniyyət Mərkəzində, A.K.Lyadov adına Uşaq musiqi məktəbində, həmçinin Krasnopresneno İncəsənət məktəbində olub.

Görüşlər zamanı mədəniyyət müəssisələrinin idarəetməsi sahəsində təcrübə mübadiləsi, yeniliklərin tətbiqi üzrə əməkdaşlığa dair razılıq əldə olunub.

## Yaradıcı sənaye və yerli imkanlar

Bərdə Regional Mədəniyyət İdarəsi yaradıcı və mədəniyyət sənayelərinin inkişafına dəstək məqsədilə "Yaradıcı sənaye və yerli imkanlar" adlı sərgi-yarmarka təşkil edib.



Bərdə Dövlət Rəsm Qalereyasının qarşısında keçirilən sərgi-yarmarkada regional idarənin əhatə etdiyi Yevlax, Mingəçevir şəhərləri, Tərtər və Bərdə rayonlarından nümayəndələr iştirak edib, sənətkarlıq, təsviri sənət nümunələri nümayiş olunub. Yarmarkada nümayiş olunan toxuma və bədii tikmə, ağac üzərində oyma işləri, xalçalar, suvenirlər, təqdim olunan musiqi nömrələri rayon sakinlərinin və qonaqların marağına səbəb olub.

Regional idarənin rəisi İlyas Hacıyev sərgi-satış yarmarkasının keçirilməsinin əhəmiyyətindən, dövlətimizin dünya təcrübəsini nəzərə alaraq mədəniyyət sahəsinə yeniliklər gətirməsindən bəhs edib. Vurğulanıb ki, sərgi-yarmarka regionda yaradıcı sənayenin inkişafına yönələn bir addımdır. Yaradıcı sənayenin inkişafı həm yaradıcı vətəndaşların ailə gəlirlərinin artırılması, maddi rifahlarının yaxşılaşdırılması, həm də bölgədə turizmin inkişafı baxımından əhəmiyyət kəsb edir. Bu cür yarmarkalar regional idarənin əhatə etdiyi şəhər və rayonlarda davamlı olaraq keçiriləcək.

# Yasamal rayon Heydər Əliyev Mərkəzinin 10 illiyi qeyd olundu





Dekabrın 20-də Yasamal rayon Heydər Əliyev Mərkəzində bu mədəniyyət ocağının 10 illiyinə həsr olunmuş tədbir keçirildi.

Mərkəzin direktoru Naminə Ömərova tədbiri giriş sözü ilə açaraq fəaliyyətləri haqqında ətraflı məlumat verdi. Bildirdi ki, mərkəzin açılışı Prezident İlham Əliyevin iştirakı ilə gerçəkləşib: "Mərkəzimizdə ötən illər ərzində ümummilli lider Heydər Əliyevin fəaliyyətinə həsr olunan və eləcə də dövlət quruculuğu, Azərbaycanın inkişafı, ölkəmizdə və beynəlxalq aləmdə aktual olan müxtəlif mövzularla bağlı dəyirmi masalar, konfranslar, seminarlar və digər tədbirlər keçirilib".

Mədəniyyət naziri Əbülfəs Qarayev mərasimdə çıxış edərək ulu öndər Heydər Əliyevin adının Azərbaycan tarixində əvəzolunmaz şəxsiyyət kimi qaldığını bildirdi: "Ümummilli liderin fəaliyyəti hər zaman inkişafla, yeniliklərlə bağlı olub. Onun adını daşıyan bu mərkəz həm indiki, həm də gələcək nəsillər üçün mühüm əhəmiyyət kəsb edir. Artıq 10 ildir ki, fəaliyyət göstərən Yasamal rayon Heydər Əliyev Mərkəzi bu illər ərzində dahi siyasətçinin irsinin təbliği sahəsində mühüm xidmətlər göstərib".

Nazir dedi ki, Heydər Əliyev mərkəzlərinin işinin müasir tələblərə uyğun qurulması, mərkəzlər arasında işgüzar əlaqələrin yaradılması, həyata keçirilən tədbirlərin işıqlandırılması və yeniliklərin tətbiq edilməsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən informasiya portalı (http://heydaraliyevcenters.az) istifadəyə verilib. Heydər Əliyev mərkəzlərində keçirilən tədbirlərin operativ şəkildə ictimaiyyətə təqdim edilməsində bu portalın əhəmiyyəti böyükdür.

Əbülfəs Qarayev Yasamal rayon Heydər Əliyev Mərkəzinin 10 illik yubileyi ilə bağlı mərkəzin kollektivini təbrik etdi, yeni uğurlar arzuladı.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov vurğuladı ki, tərtib edilən tematik təqvim proqramına əsasən ali və orta təhsil müəssisələrinin tələbələri və şagirdlərinin mərkəzə ekskursiyaları təşkil edilir. Mərkəzdə gənc və yeniyetmələrin milli vətənpərvərlik ruhunda yetişdirilməsi məqsədilə müxtəlif tədbirlər keçirilir, şeir, rəsm, inşa müsabiqələri və sərgilər təşkil olunur.

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov mərkəzlə birgə seminarlar, elmi-praktik konfranslar, elm xadimlərinin yubiley tədbirləri keçirdiklərini bildirdi. Vurğulandı ki, mərkəzin kitab fondunun zənginləşdirilməsində AMEA-nın Fəlsəfə İnstitutu və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə sıx əməkdaşlıq edilir.

Daha sonra muzeyin 10 illik fəaliyyətini əks etdirən videoslayd nümayiş olundu.

Tədbirin sonunda mərkəzlə əməkdaşlığa görə ən fəal 10 müəssisənin rəhbərlərinə mükafat təqdim edildi.

**NURƏDDİN**

# Azərbaycanda UNESCO klublarının təqdimatı

UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının dəstəyi və Prezident yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı ilə Azərbaycanda ilk UNESCO klublarının təqdimat mərasimi keçirilib.

Mərasimdə məlumat verilib ki, bu il Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Avropa liseyi və 20 saylı ümumtəhsil məktəbində UNESCO klubları yaradılıb.

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Azərbaycan-UNESCO münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edərək, bu sahədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın müstəsna rolunu vurğulayıb. UNESCO üzrə Milli Komissiyanın baş katibi Elnur Sultanov çıxış edərək 1994-cü ildə yaradılan komissiyanın fəaliyyəti barədə danışıb. O, ölkəmizdə UNESCO klublarının yaradılmasının Azərbaycanın təşkilatla əlaqələrində yeni səhifə olduğunu deyib.



Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev UNESCO-nun gənclər mövzusuna önəm verdiyini vurğulayıb, ölkəmizdə həyata keçirilən gənclər və idman siyasətindən bəhs edib.

Mədəniyyət Nazirliyi Aparat rəhbərinin müavini Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə mədəniyyət sahəsində, xüsusən də maddi və qeyri-maddi irsin qorunması sahəsində Azərbaycan–UNESCO əməkdaşlığından bəhs edib və klubların yaradılmasının əhəmiyyətini vurğulayıb.

Azərbaycan-UNESCO klublarının koordinatoru Cahangir Hacıyev təqdimatla çıxış edərək, klubların yaranması haqqında tədbir iştirakçılarına məlumat verib və onların fəaliyyət istiqamətləri barədə danışıb.

# Çövkən milli oyunu üzrə "Prezident kuboku" turnirinə yekun vurulub

Dekabrın 24-də Binə Atçılıq Mərkəzinin qapalı manejində çövkən milli oyunu üzrə "Prezident kuboku" turnirinin final matçı və üçüncü yer uğrunda qarşılaşma keçirilib.

Finalda "Buta Golden" komandasını 3:0 hesabı ilə məğlubiyyətə uğradan "Omar" klubu ilk dəfə kuboka sahib olub. Üçüncü yer uğrunda görüşdə "Polad" komandası "Sərhədçi"ni məğlub edib – 5:0.

Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) prezidenti, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev, Mədəniyyət naziri Əbülfəs Qarayev, Gənclər və İdman naziri Azad Rəhimov, Dünya Etnosport Konfederasiyasının prezidenti Bilal Ərdoğan final qarşılaşmasını izləyiblər.

Final matçından sonra qaliblər və turnirin ən yaxşı idmançıları mükafatlandırılıb. Turnirin ən yaxşı oyunçusu Rauf Tahirov ("Omar"), ən yaxşı atı isə "Şaban" ləqəbli at elan edilib.

ARAF-ın prezidenti Elçin Quliyev fəxri kürsüdə yer alan komandaların üzvlərinə kubok və medalları təqdim edib.



Xatırladaq ki, Mədəniyyət Nazirliyinin və Azərbaycan Respublikası Atçılıq Federasiyasının dəstəyi ilə keçirilən "Prezident kuboku" turnirinə dekabrın 13-də start verilmişdi. Yarışların qrup və dörddəbir final mərhələlərinin oyunları Şəkinin Daşüz kəndindəki Respublika Milli Atüstü Oyunlar Mərkəzində keçirilib. Qrup mərhələsində 12 komanda 4 qrupda mübarizə aparıb. Binə Atçılıq Mərkəzinin qapalı manejində oynanılan yarımfinal görüşlərində isə "Omar" komandası "Polad"ı 2:1, "Buta Golden" isə "Sərhədçi"ni 4:1 hesabı ilə məğlubiyyətə uğradıb.

# Həsirçilik sənəti üzrə ustad dərsləri

Azərbaycan Milli Xalça Muzeyində "Mədəni irsin davamlı inkişafı: həsirçilik sənəti" üzrə ustad dərsləri keçirilib. Layihə ictimaiyyətin diqqətini həsirçilik sənətinə, dekorativ-tətbiqi sənət nümunəsi kimi əhəmiyyətinə, bu irsi yaşadan sənətkarların fəaliyyətinə yönəltmək məqsədilə həyata keçirilib.

Kiçik yaşlarından həsir toxuma sənəti ilə məşğul olan Masallı rayon sakini Fəridə Həşimova tərəfindən keçilən dərslərə iştirakçılar böyük maraq göstərib.

Rəhim Tağıyev adına Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Əntiqə Tağıyeva həsirçiliyin Azərbaycanda qədim tarixə malik xalq sənəti növlərindən olduğunu deyib: "Həsir əsasən ölkəmizin cənub bölgəsində minilliklərdir əvəzsiz məişət əşyası kimi işlədilib. Bu isə həmin zonanın subtropik iqlimi ilə əlaqədardır. Həsir rütubətdən qorunmaq üçün ən yaxşı vasitələrdən biridir".



Təbii xammaldan toxunan həsir məişət əşyası kimi istifadə olunmaqla yanaşı, həm də özünün nəfis, zərif naxışları ilə bədii əhəmiyyət daşıyıb. Təəssüf ki, müasir dövrdə bu sənət növü tədricən unudulur. Ətraf mühitin plastik tullantılarla çirklənməsinin ciddi problemlərdən biri kimi müzakirə olunduğu bir zamanda həsirçiliyin sənət növü olaraq yaşadılması xüsusi önəm kəsb edir. Həsirdən hazırlanan əşyaları müasir dəbə uyğunlaşdırmaq, forma və dizayn baxımından dekorativ və cəlbedici etməklə geniş şəkildə yaymaq lazımdır. Milli Xalça Muzeyində təşkil olunan ustad dərsləri də bu istiqamətdə atılmış addımdır.

# Xalq rəssamı Kamil Nəcəfzadənin yubileyinə həsr edilmiş sərgi



Dekabrın 20-də Muzey Mərkəzində SSRİ və Azərbaycanın Dövlət mükafatları laureatı, Xalq rəssamı Kamil Nəcəfzadənin 90 illik yubileyinə həsr edilmiş sərginin açılışı oldu.

82 yaşında dünyasını dəyişmiş rəssamın xatirə sərgisi onun ailə kolleksiyasında, Azərbaycan Milli İncəsənət Muzeyi və Dövlət Rəsm Qalereyasının saxlanclarında qorunan əsərləri əsasında təşkil edilib.

Mərasimdə çıxış edən Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva Kamil Nəcəfzadəni həm görkəmli rəssam, həm də gözəl pedaqoq kimi səciyyələndirən cəhətlərini diqqətə çatdırdı. Bildirdi ki, sənətkarın zəngin yaradıcılığı ilə yanaşı, gənc istedadlı rəssamların formalaşmasında da böyük xidmətləri olub. Kamil Nəcəfzadənin əsərləri bu gün də tamaşaçılar tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımov rəssamın həyat və yaradıcılıq yolundan bəhs etdi. Qeyd olundu ki, 1929-cu il dekabrın 29-da Lənkəranda dünyaya gəlmiş Kamil Nəcəfzadə əvvəlcə Bakıda Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində, sonra da Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunda təhsil alıb. Azərbaycanın ilk ali təhsilli kino rəssamlarından olan Kamil Nəcəfzadə "Qara daşlar", "Bir məhəllədən iki nəfər", "Uzaq sahillərdə", "Ulduz", "Bizim küçə", "Mən rəqs edəcəyəm", "Bir cənub şəhərində", "Qaçaq Nəbi", "Ad günü" və daha neçə məşhur filmin quruluşçu rəssamıdır.

Kamil müəllim yaradıcılığında təkcə kino sahəsinə qapanmayıb. Görkəmli sənət adamlarının, o dövrün tələblərinə görə əmək qəhrəmanlarının portretlərini çəkib, mənzərə janrında da maraqlı əsərlər yaradıb, teatr tamaşalarının bədii tərtibatı ilə məşğul olub. Qarabağ savaşı başladıqdan sonra rəssam Xocalı faciəsinə və şəhidlər mövzusuna həsr olunmuş süjetli lövhələr işləyib.

Mərasimdə çıxış edən rəssamın qızı, otuz ildən bəri ABŞ-da yaşayan Aynur Nəcəfzadə söylədi ki, okeanın o tayında indiyədək dörd dəfə atasının əsərlərindən ibarət sərgi təşkil etməklə Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsinin tanınmasına nail olub. Qeyd etdi ki, Kamil Nəcəfzadənin Bakıya həsr etdiyi bir mənzərə tablosu Vaşinqtonda, Ağ evdə sərgilənir.

Açılış mərasiminin sonunda yubilyarın oğlu, Əməkdar incəsənət xadimi, kinorejissor Şamil Nəcəfzadə, babasının sənətini yaşadan nəvəsi Aysel Nəcəfzadə çıxış edərək, Kamil Nəcəfzadə ilə bağlı xatirələrini bölüşdülər, onun xatirəsinə göstərilən ehtirama görə minnətdarlıqlarını bildirdilər.

Qeyd edək ki, sərgidə Kamil Nəcəfzadənin film və tamaşalar üçün hazırladığı eskizlər, Azərbaycan torpağının gözəlliklərini əks etdirən tabloları ilə yanaşı, xarici ölkələrə yaradıcılıq ezamiyyətləri zamanı kətana və kağıza köçürdüyü boyakarlıq və qrafika nümunələri də yer alıb. Bu gün onun əsərləri ABŞ, Yaponiya, Rusiya, Almaniya, Fransa, Vyetnam, İngiltərə və b. ölkələrdəki muzey və şəxsi kolleksiyalarda saxlanılır.

Sərgi dekabrın 27-dək davam edəcək.

**G.MİRMƏMMƏD**

# Nəsimi irsi səhnə layihələrində

*əvvəli səh. 1-də*

Nəsimi irsinin xoreoqrafiya nümunəsində maraqlı təzahürü Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Fikrət Əmirovun "Nəsimi" baletinin yeni quruluşda nümayişi oldu. Tamaşanın quruluşçu baletmeysteri Opera və Balet Teatrı balet truppasının bədii rəhbəri, Xalq artisti Kamilla Hüseynova, libretto müəllifi Əjdər Ulduz, musiqi rəhbəri və dirijoru Xalq artisti Yalçın Adıgözəlov, səhnə tərtibatçısı Əməkdar rəssam Nüsrət Hacıyevdir. Rollarda Anar Mikayılov (şair Nəsimi), əməkdar artistlər Nigar İbrahimova (Nəsiminin həyat yoldaşı), Samir Səmədov (Nəimi), həmçinin İslam Məmmədov (gənc Nəsimi) və Dinara Şirinova (Nəsiminin qızı) çıxış edirlər. Məşhur baletə yeni libretto yazan Ə.Ulduz tamaşanın süjetini üç şəklə – Sufinin gəncliyi, Sufinin səyahətləri və Sufinin edamı – bölməklə bizə kinoekrandan və bəzi miniatürlərdən Nəsimi soraq-təsvirini ötürən cizgilərin yeni portretini təqdim edir.

***

Digər səhnələrdəki Nəsimi obrazına gəlincə, Bakı Bələdiyyə Teatrının səhnə işini ayrıca qeyd etmək istərdim. Çünki 27 illik zəngin yaradıcılıq yolu keçən teatrın "Nəsimi" adı verdiyi tamaşası izləyicilərə şairin obrazına fərqli prizmadan baxmaq imkanı yaratdı.

Xalq artisti Mərahim Fərzəlibəyovun quruluş verdiyi tamaşada şairin yaşadığı dövrü və onun həqiqətlərini görə bildik. Çingiz Ələsgərlinin müəllifi olduğu səhnələşdirmədə şairin mübarizəsini aşiqliyindən bir addım irəlidə gördük. Quruluşçu rəssam (İlham Əsgərov) bir-iki məqam üzərində dayanmaqla tamaşaçının diqqətini hadisələrin inkişaf etdiyi zaman və məkanlara yönəldir. Tamaşada Nəsimi obrazını Tural Əhməd canlandırırdı. Digər rollarda əməkdar artistlər Aydın Əliyev (Nəimi), Hüsniyyə Mürvətova (Fatma), Rafiq İbrahimov (İbrahim şah), İlqar Musayev (Əmir Teymur) və başqaları oynayırdı.

***

"Nəsimi ili" çərçivəsində daha bir sənət layihəsini C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı təqdim etdi. Kollektiv Azərbaycan Dövlət Mahnı Teatrının səhnəsində şair-dramaturq İftixarın "Haqq mənəm" pyesi əsasında hazırlanan eyniadlı tamaşanı göstərdi.

Quruluşçu rejissoru, rəssamı və xoreoqrafı müəllifin özü – Əməkdar mədəniyyət işçisi İftixar Piriyev olan bu tamaşa Nəsimi irsinin özünəməxsus yozumda təqdimatı idi. Musiqi və rəqs elementlərinin müşayiətində şairin həyatından məqamlar, mübarizəsindən detallar, poeziyasından seçkin nümunələrlə həmahəng "Haqq mənəm" tamaşaçıları Nəsimi dünyasına baxışa çağırırdı.

***

Bakı Uşaq Teatrı böyük şairin yubileyinə "Nəsimi ili – Nəsimi dili" adlı festivalla töhfə verdi. Azərbaycan Teatr Xadimləri İttifaqının Abbas Mirzə Şərifzadə səhnəsində başlayan (12 aprel) festivala Akademik Musiqili Teatr, Sumqayıt Dövlət Dram Teatrı, Dərbənd Azərbaycan Dövlət Dram Teatrı, Mədəniyyət və İncəsənət Universiteti və Respublika İncəsənət Gimnaziyası da qatılmışdı.

Bakı Uşaq Teatrı öz səhnə imkanları daxilində Nəsimi eşqini dilə gətirdi. Azərbaycan Dövlət Akademik Musiqili Teatrının kollektivi isə Nəsiminin ideyalar aləmini musiqili çarxla səhnəyə daşıdı. Dahi bəstəkar Fikrət Əmirovun balet musiqisi əsasında "Nəsimi" adlı promo-roliki rejissor Samir Qulamov hazırlamışdı.

***

Bu günlərdə teatrsevərlər Yuğ Dövlət Teatrının səhnəyə çıxardığı Nəsimiyə tamaşa etdilər. Dekabrın 26-da premyerası reallaşdırılacaq "Mənəm mən" tamaşası İlqar Fəhminin mistik-psixoloji dramı əsasında hazırlanıb. Tamaşanın quruluşçu rejissoru Mehriban Ələkbərzadə, quruluşçu rəs-



samı Vüsal Rəhim, bəstəkarı Aygün Səmədzadədir. Səhnə əsərində Məmmədsəfa Qasımov, Əbdülqəni Əliyev, Vüqar Hacıyev, Elgün Həmidov, Qasım Nağı, Amid Qasımov rol alırlar.

Mistik psixoloji dram kimi müəyyən olunan tamaşada fərqli bir Nəsimi izləyəcəyik. Daxilən azad adamlara ünvanlanan səhnə işində bizi Nəsimidən ayıran uzun zaman bir anda yox olur və beləcə, gücü çatan hər kəsin Nəsimi ilə ruhi bütünləşməsi baş verir.

***

İl ərzində reallaşan bu teatr, sənət tədbirlərini izləmək imkanı olmayanlar üçün, belə demək olarsa, son şans dekabrın 27-də veriləcək. Həmin gün Heydər Əliyev Sarayında Xalq artisti Firəngiz Əlizadənin "Nasimi passion" əsəri əsasında vokal-xoreoqrafik tamaşası nümayiş olunacaq. Əsərin xoreoqrafik quruluşu Mədəniyyət Nazirliyinin xüsusi dəvətinə əsasən Sankt-Peterburq Balet Akademiyasının professoru, Rusiyanın Xalq artisti Edvard Smirnova məxsusdur.

**Həmidə NİZAMİQIZI**

# Üç axşam opera zövqü

## yaxud film kimi tamaşa təəssüratı



*əvvəli səh. 1-də*

Təxminən on bir il icarə səhnələrdə çıxış etmiş "Sankt-Peterburq Opera" 1998-ci ildən Rusiyanın şimal paytaxtının musiqili teatr tarixi ilə sıx bağlı olan binada – baron fon Dervizin imarətində yerləşir. Teatr otuz ildən artıqdır ki, unikal repertuar proqramı ilə çalışır. Repertuarda "Roben və Marion haqqında oyun" kimi Orta əsr pastoralından çağdaş moskvalı bəstəkar Yuri Butskonun "Fyodor Dostoyevskinin bəyaz gecələri"nədək ən müxtəlif janrlara aid opera tamaşaları və musiqi əsərləri yer alıb.

Teatr Bakıda iki tamaşa – J.Bizenin "İnci axtaranlar" və Ş.Qunonun "Faust" operalarını oynadı, bir qala-konsert verdi. İlk baxışdan elə görünə bilər ki, peterburqlular Bakıya tam klassik operaları gətirmişdilər...

### "İnci axtaranlar"la ilk görüş

Bəlkə də nə vaxtsa bizim Akademik Opera və Balet Teatrında bu tamaşa oynanılıb. Oynanılmayıbsa, onda çox gözəl musiqisi və Avropa operası üçün qeyri-adi süjetə malik bu əsəri tamaşaya qoymağa dəyər. Üstəlik, ilk peşəkar vokalçımız Bülbüldən bəri "İnci axtaranlar"dan Nadirin ariyası zaman-zaman bizim tenorların konsert repertuarında olub.

İki igid dost – Nadir və Zurqanın Leyla adlı gözəl qıza bəslədiyi məhəbbət üzündən yaranmış sevgi üçbucağında baş verənlər "İnci axtaranlar"ın ana xəttidir. Naməlum gözələ bəslədikləri məhəbbət dostları düşmənə çevirməsin deyə, onlar ayrılır, doğma yerləri tərk edirlər. Ejön Kormon və Mişel Karrenin librettosu əsasında bəstələnmiş operada əhvalatlar Seylon adasında okean sahilində ucalan Kandi məbədinin ətrafında cərəyan edir. Sevdiyi Leylaya qarşı hisslərinin soyuduğuna əmin olan Nadir Zurqanın yeni tayfa başçısı seçildiyi gün doğma yerlərə qayıdır. Leyla isə inci axtaranlara hamilik edən, məhəbbətdən, nikahlanmaqdan imtina etmiş məbəd kahini taleyi yaşamağı qəbul edib.

Səhnə əsərinin məzmununu danışmaq fikrimiz yoxdur. Sadəcə, tamaşanın çox zəngin dekorasiyasını, iştirakçıların geyiminin və qriminin mükəmməlliyini qeyd etməyə bilmərik. Bizim teatrlarımızda da son zamanlar davamlı rast gəldiyimiz video-instalyasiya "İnci axtaranlar"da da var idi. Sadəcə, əhvalatın okean sahilində baş verdiyini anladan, gözəl Leylanın məbəd kahini kimi inci axtaranları necə uğurlayacağını göstərmək üçün istifadə edilən video-instalyasiya səhnənin ən arxa divarında, ağac və okean sahilinə xas mağara girişlərinin lap arxasında dekorasiyanı tamamlayırdı deyə, tamaşaya yamaq kimi görünmürdü. Teatrın qastrol zamanı da tamaşanı öz orkestrinin müşayiəti ilə, həm də stasionar səhnədəki eyni formatda və eyni dekorasiyada oynaması – "qastrolda qənaət" prinsipinə uyğunlaşmaması, bir tərəfdən, yerli seyrçiyə ehtiramdırsa, digər tərəfdən, öz əməyinin nəticəsinə hörmətin təzahürüdür.

Bu yerdə Rusiya mətbuatında "Sankt-Peterburq Opera"nın yaradıcısı və əvəzolunmaz bədii rəhbəri, indiyədək öz ölkəsində və xaricdə 250-dən çox tamaşaya quruluş vermiş Yuri Aleksandrovun fenomenal şəxsiyyət və sənətkar kimi təqdim edilməsinə haqq qazandırırsan. Onun quruluş verdiyi "İnci axtaranlar"da əsas partiyaları beynəlxalq müsabiqə laureatları Vladislav Mazankin (Nadir), Yevgeniya Kravçenko (Leyla), Aleksey Paşiyev (Zurqa) və Anton Morozov (Nurabad) ifa edirdilər.

### Bu gün Mefistofel harada işləyir?

Hötenin "Faust" fəlsəfi dramına bir neçə bəstəkar irihəcmli musiqi əsəri bəstələyib ki, onlardan ən möhtəşəmi Şarl Qunonun eyniadlı operasıdır. "Sankt-Peterburq Opera"da bu əsərə quruluş verən Yuri Aleksandrov tamaşadakı hadisələri bu günümüzə gətirib. Tamaşanın annotasiyasında quruluşçu rejissor bunu belə izah edir: "Dünyanın əksər rejimləri insan ağlını və qəlbini özünə tabe etməyə cəhd göstərir. Kommunist rejimində də belə olub, müəyyən dərəcədə indi də belədir. Müasir informasiya müharibələrinin gedişini izləmək kifayətdir. Bütün dünyada müxtəlif informasiyanı insanların şüuruna yeridirlər. Faustun əhvalatında mən insan şüurunun işğalını, yeni Frankenşteyn yaratmaq cəhdini görürəm".

Tamaşada hadisələr bizim günlərə daşınıb. Əsərin əsas qəhrəmanları kiçik psixiatriya klinikasının xəstələri, Mefistofel də insan düşüncəsi üzərində eksperimentlər aparan baş həkimdir. Buna görə də Mefistofel (Avropa mifologiyasında bəd ruhun ümumiləşmiş obrazı) sadəcə, buynuzlu iblis kimi karikatur obraz deyil, o, ətrafımızda dolaşan adi adamlardan biri olduğuna görə daha qorxuludur! Onun tamaşa zamanı söylədiyi "Adamlar dəmir üstündə həlak olurlar" ifadəsi, yaxud "İblis hər şeyə hakimdir" ariyası əsərin məğzini açan leytmotivə çevrilir. Hötenin ədəbiyyata gətirdiyi əbədi cavanlıq və məhəbbət, pul, şöhrət, həzz naminə qəlbini və vücudunu satmaq istəklərinə görə iblisə uymaq kimi mövzular hələ də aktuallığını itirmir.

"Sankt-Peterburq Opera"nın beynəlxalq müsabiqələrdə laureat adını qazanmış solistləri – Sergey Alyoşenko (Faust), Yuri Borşşev (Mefistofel), Valentina Fedenyova (Marqarita), Viktoriya Martemyanova (Zibel, Kleopatra), Yeqor Çubakov (Valentin), Natalya Vorobyova (Marta, Lais) və Anton Morozovun (Vaqner) ifası rejissor Yuri Aleksandrovun tamaşada qabartmaq istədiyi məqamları tam açır, obrazların dramaturji yükünü tamaşanın yozumunda olduğu kimi çatdırırdı.

***

"Sankt-Peterburq Opera"nın iki tamaşasında iki maraqlı yeniliklə rastlaşdıq. Onlardan biri – sırf texnoloji məqam idi: tamaşanın mətni – yəni bütün ariyalar, reçitativ və xorun ifası səhnənin hər iki tərəfində quraşdırılmış monitorda subtitrlərlə rus dilində əks olunurdu. Hərçənd tamaşanın proqramında seyr edəcəyimiz göstərinin geniş mətni yer almışdı. Fikrimizcə, dünya opera teatrlarında qəbul edilmiş qayda – operanın orijinalda oxunması tələbi bizdə də şəksiz yerinə yetirilirsə, o zaman təkcə dramatik teatrlarda oynanılan qastrol tamaşaları, yaxud beynəlxalq tamaşaçı kontingenti üçün verilən subtitr tərcüməsindən musiqili teatr nümayişlərində də istifadənin yeri var.

Digər bir məqam isə sırf yaradıcılıqla bağlıdır: qonaq teatrın yaradıcı heyətində balet truppası yoxdur. Əslində, daha çox kamera tamaşalarının oynanıldığı kiçik səhnədə balet truppasının qol-qanad açmasına yer də yoxdur. Amma tamaşalarda – istər teatrın rəsmi elektron portalında fraqmentlərini izlədiyimiz tamaşalarda, istərsə də Bakıda oynanılan operaların kütləvi səhnələrində rəqs elementlərindən nəinki bol istifadə edilir, hətta ayrıca rəqs nömrəsi təsiri bağışlayan parçalar var. Bəli, həmin rəqsləri xor artistləri ifa edirdilər, özü də əsl vokalçı kimi canlı orkestrin müşayiəti ilə fonoqramsız, mikrofonsuz oxuyaraq. Bəs buna necə nail olunur? Təbii ki, rejissorun, tamaşanın plastik həllini verən baletmeysterin solistlər, xor artistləri ilə davamlı məşqləri, bir də vokalçıların səhnədə rəqs edərək oxuya bilmək üçün qüvvəsi çatacaq fiziki formada qalması sayəsində.

Gerçəkdən, bəzən tamaşada çıxış edən vokalçılar o qədər dramatik aktyor məharəti göstərir, mimika və jestlərdən elə bacarıqla istifadə edirdilər ki, bir anlıq çaşıb özünü film-opera seyrçisi kimi hiss edirdin.

Bu yerdə "Sankt-Peterburq Opera"nı Yuri Aleksandrovun "rejissor teatrı" adlandıran tənqidçilərə də, bu fikirlə razılaşmayan bədii rəhbərin "mənim teatrım aktyor teatrıdır" qənaətinə də haqq verirsən.

### Son axşam... Yəqin ki, sonuncu olmayacaq

Nəhayət, dekabrın 19-da, qastrolun üçüncü günündə Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı qonaqlarını öz binasında qarşıladı. Həmin axşam "Sankt-Peterburq Opera"nın orkestri və solistləri böyük konsert proqramı ilə çıxış etdilər.

Konsertdən öncə Bakı teatrının baş rejissoru, Xalq artisti Aleksandr Şarovski səhnəyə çıxaraq Rusiyadan gələn kollektivə paytaxtımızın sakinlərinə və qonaqlarına opera zövqü yaşatdıqlarına görə minnətdarlıq edərək, bu səfərin ölkələrimiz arasında mədəni əlaqələrin daha da möhkəmlənməsinə töhfə kimi dəyərləndirdi: "Dekabrın 20-də bizim teatrın 99 yaşı tamam olur. Deməli, biz yüz yaşımıza "Sankt-Peterburq Opera"nın qastrolu ilə qədəm qoyuruq. Kollektivimiz yubiley ilində xeyli maraqlı layihə ilə çıxış edəcək, premyeralar və maraqlı tamaşalar hazırlayacaq. Dostlarımıza bu qastrol üçün təşəkkür edir və onlarla gələcəkdə də məhsuldar əməkdaşlığa ümid edirik".

"Sankt-Peterburq Opera"nın direktoru Yevgeni Malıgin qastrolun təşkilatçılarına – Rusiyanın ölkəmizdəki səfirliyinə və Azərbaycanın Mədəniyyət Nazirliyinə minnətdarlığını bildirərək, 110 nəfərlik heyətə göstərilən qonaqpərvərliyə görə təşəkkür etdi: "Güman edirəm ki, biz Bakıya yenə də gələcəyik və Akademik Rus Dram Teatrının 100 illiyini birlikdə qeyd edəcəyik".

Qala-konsertdə tamaşalarda gördüyümüz vokalçılarla yanaşı, beynəlxalq müsabiqə laureatları Olesya Qordeyeva, Andrey Zemskov, Sofya Nekrasova, Vsevolod Kalmıkov, Aleksandr Qoyxmanın dirijorluq etdiyi "Sankt-Peterburq Opera" orkestrinin müşayiəti ilə çıxış etdilər. Populyar rus və xarici ölkə bəstəkarlarının operalarından ariya və duetlərin bir-birini əvəzlədiyi konsert C.Verdinin "Traviata"sından ziyafət mahnısı ilə bitdi. Yəni bitdi deyəndə ki, tamaşaçıların aramsız alqışları və "bis" çağırışları solistləri bu mahnını təkrar oxumaq üçün səhnəyə qaytardı.

Gerçəkdən də, zəngin təəssürat yaradan qastrolun uğurlu sonluğuna yalnız ziyafət mahnısı yaraşardı. Salonun divarlarında əks olunan alqışlar isə bizim üç axşam ardıcıl olaraq qulaq və könül ziyafəti yaşamağımızın minnətdarlıq sədaları idi.

**GÜLCAHAN**

№94 (1679)
25 dekabr 2019
www.medeniyyet.az

## Çimnaz Məmməd qızı Babayeva

Azərbaycan xoreoqrafiya sənətinə ağır itki üz vermişdir. Xalq artisti, bənzərsiz balet ustası, respublika Dövlət mükafatı laureatı Çimnaz Məmməd qızı Babayeva 2019-cu il dekabrın 23-də 73 yaşında vəfat etmişdir.



Çimnaz Babayeva 1946-cı il dekabrın 23-də Bakı şəhərində anadan olmuşdur. 1964-cü ildə Bakı Xoreoqrafiya Məktəbini bitirən gənc balet artisti Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının truppasına qəbul edilmiş və Azərbaycanın balet ustalarından biri kimi tanınmışdır. Görkəmli sənətçi teatrın səhnəsində bir çox milli və klassik balet tamaşalarında unudulmaz obrazlar yaratmışdır. O öz həyat yoldaşı, Xalq artisti Vladimir Pletnyov ilə birgə A.Məlikovun "Məhəbbət əfsanəsi" baletində Şirin, Q.Qarayevin "Yeddi gözəl"ində Aişə, "İldırımlı yollarla"da Sari, Ə.Bədəlbəylinin "Qız qalası"nda Gülyanaq, F.Əmirovun "Nəsimi haqqında dastan"da Nəsiminin sevgilisi, L.Minkusun "Don Kixot" baletində Kitri və başqa tamaşalarda Azərbaycan klassik xoreoqrafiya sənətini şərəfli bir pilləyə ucaltmışdır.

Ustad sənətkar həm də pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1977-ci ildən 2000-ci ilədək Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında məşqçi baletmeysteri vəzifəsində fəaliyyət göstərmiş. Teatrda gənc balet artistlərinin yetişdirilməsində onun zəhməti əvəzsizdir.

Çimnaz Babayeva öz quruluşlarında da klassik xoreoqrafiya və Azərbaycan milli rəqs sənətinin sintezinə nail olmuş, baletlərə yüksək professionallıqla quruluş vermişdir. O, teatrın balet truppası ilə birgə Rusiya, Ukrayna, Fransa, İtaliya, Norveç, İsveç, Birma, Hindistan, Türkiyədə uğurla çıxış etmişdir.

Milli baletin görkəmli nümayəndəsi olan Çimnaz Babayeva qırxillik fəaliyyəti dövründə bir çox fəxri adlara və yüksək dövlət mükafatlarına layiq görülmüşdür. O, 1970-ci ildə Əməkdar artist, 1974-cü ildə Fikrət Əmirovun "Nəsimi haqqında dastan" baletinin səhnələşdirilməsinə görə Azərbaycanın Dövlət mükafatı laureatı, 1978-ci ildə Xalq artisti kimi yüksək fəxri adlara layiq görülmüşdür. 2002-ci ildən Prezident təqaüdçüsü idi.

Görkəmli sənətkar, balet ustası Çimnaz Məmməd qızı Babayevanın xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaqdır.

Allah rəhmət eləsin.

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi**
**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı**

## Xalq rəssamı Cəmil Müfidzadə vəfat edib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Xalq rəssamı, görkəmli rəngkar və qrafika ustası, professor Cəmil Miryusif oğlu Müfidzadə 20 dekabr 2019-cu ildə ömrünün 86-cı ilində vəfat edib.

Dekabrın 21-də Təzəpir məscidində sənətkarla vida mərasimi keçirildi. Mərasimdə mərhumun sənət dostları, mədəniyyət və ictimaiyyət nümayəndələri iştirak edirdi.

Mədəniyyət Nazirliyi İncəsənət şöbəsinin sektor müdiri Qalib Qasımov çıxış edərək görkəmli sənətkarın ömür yolundan və yaradıcılığından danışdı. Qeyd edildi ki, Cəmil Müfidzadə 24 fevral 1934-cü ildə Naxçıvan MR-in Ordubad rayonunda dünyaya göz açıb. 1955-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirib. Diplom işi "Ümumittifaq sərgisinə eksponatların yola salınması" adlı rəngkarlıq əsəri olub. O daha sonra Ukraynada Kiyev Rəssamlıq Məktəbində, Xarkov Dövlət Rəssamlıq İnstitutunun Qrafika fakültəsində təhsil alıb. Bu dəfə diplom işi kimi "Neft Daşları" mövzusunda rəngli ofortlar silsiləsini çəkib.



Cəmil Müfidzadə tələbəlik illərində həm Azərbaycan, həm də Ukraynada təşkil olunmuş müxtəlif sərgilərdə iştirak edib. Rəssamın işlədiyi "Doğma düzənlər" ofort silsiləsi 1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyü çərçivəsində təşkil olunmuş təsviri sənət sərgisində nümayiş olunub. O, 1961-ci ildə III Ümumittifaq sərgisində (Moskva) "Qaldırıcı kranlar təmirdə" adlı ofort ilə iştirak edib.

Qalib Qasımov görkəmli rəssamın əziz xatirəsinin sənətsevərlərin qəlbində daim yaşayacağını bildirdi.

Rəssamlar İttifaqı sədrinin müavini, Xalq rəssamı, heykəltəraş Səlhab Məmmədov qeyd etdi ki, Cəmil Müfidzadə sənət yollarında daima axtarışda olub. Qrafika sənətinin fərqli texnikalarından yaradıcılıqla istifadə edərək ksiloqrafiya texnikasında "Bakı albomu", "Neft Daşları", "Qala divarları", "Parkda", "Qız qalası", "Xəzər üzərində axşam", "Romantiklər", "Damda" və s. əsərlər yaradıb. Rəssamın yaradıcılığında "İçərişəhər" silsiləsi xüsusi yer tutur. Qarışıq texnikada çəkdiyi "Abşeron nefti" silsiləsi 1967-1975-ci illəri əhatə edir. Azərbaycanın unikal yaşayış məkanlarından Xınalığa həsr etdiyi silsiləsi yaradıcılığında da mühüm yer tutur. Rəssamın müxtəlif ölkələrə yaradıcılıq səfərləri yeni əsərlər silsiləsinin ərsəyə gəlməsinə zəmin olub. "Monqolustan torpağında" silsiləsindən Qobi səhrasının dəvəli mənzərələri belə dəyərli nümunələrdəndir. Rəssam "Buhenvald" (1965-1967), eləcə də Yaponiyaya səfərindən sonra işlədiyi "Bu bir daha təkrar olmamalıdır" (1982-1983) silsilələrində tarixin acı hadisələrinə yaradıcı mövqeyini bildirib.

Xalq rəssamı Arif Hüseynov həmkarı ilə bağlı xatirələrini bölüşdü. Onun gözəl insan, səmimi bir dost olduğunu dedi. Qeyd etdi ki, Cəmil Müfidzadə çox zəhmətkeş idi. Ömrünün son günlərinə kimi yaradıcılıq eşqi ilə çalışardı. Sənətinin şöhrəti erkən çağlardan respublika hüdudlarından kənarda tanınırdı. Onun Polşa, Rusiya, İran, Fransa və Türkiyə kimi ölkələrdə sərgiləri təşkil olunub. Əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasında, Moskvada Şərq Xalqları Dövlət İncəsənət Muzeyində, Maksim Qorkinin mənzil-muzeyində, Ulan-Bator İncəsənət Muzeyində (Monqolustan), Almaniya, Fransa və digər ölkələrdə qorunub saxlanılır.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında Qrafika kafedrasına rəhbərlik etmiş Cəmil Müfidzadə "Ofort" adlı dərsliyin müəllifidir. Onun qrafika silsiləsindən "Bəyaz gecələr", "Şimalın adi günləri", "Balıqçı adası" kimi əsərlərini də qeyd etmək olar.

Cəmil Müfidzadə Azərbaycan təsviri sənətinin inkişafında xidmətlərinə görə 1982-ci ildə Əməkdar rəssam, 2002-ci ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülüb.

Sonda mərhumun qardaşı Vasif Müfidzadə çıxış edərək mərasim iştirakçılarına minnətdarlığını bildirdi.

Sənətkar son mənzilə yola salındı.

Allah rəhmət eləsin.

**S.FƏRƏCOV**

## "Əhsən sənə, Əhsən!" kitabının təqdimatı

Dekabrın 23-də Beynəlxalq Muğam Mərkəzində tanınmış tarzən Əhsən Dadaşovun (1924-1976) həyat və yaradıcılığından bəhs edən "Əhsən sənə, Əhsən!" kitabının təqdimat mərasimi keçirildi. Yazıçı-jurnalist Rafiq Hacıyevin müəllifi olduğu kitab Mədəniyyət Nazirliyinin sifarişinə əsasən tarzənin 95 illik yubileyi münasibətilə nəşr edilib.

Təqdimat unudulmaz musiqi xadiminin ifasında "Şur" muğamının lent yazısının səslənməsi ilə başlandı.

Tədbirin aparıcısı – Əməkdar incəsənət xadimi, professor İlham Rəhimli Əhsən Dadaşovun həyat yoluna nəzər salaraq yaradıcılığından söhbət açdı. Diqqətə çatdırdı ki, kitabın obrazlı dili ustad tarzənin əhatəsində olduğu mədəni mühiti və şəxsləri real surətdə nəzərə çarpdırmaqla bərabər, Əhsən Dadaşovun zəngin yaradıcılıq yolunu və geniş daxili aləmini oxucuya təqdim edir.

Vurğulandı ki, Əhsən Dadaşov ifasında təfəkkürünü, texnikasını və səmimiyyəti cəm edən sənətkarlardan idi. Tarzənin çalğısı insan ruhunu oxşayaraq onu öz sehrinə salır. Azərbaycanda xalq çalğı alətlərində notla ifanı da məhz Əhsən Dadaşov tətbiq edib.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov bildirdi ki, Azərbaycan mədəniyyətində Əhsən Dadaşovun özünəməxsus yeri var: "Ona qədər Azərbaycan tarı minillik inkişaf dövrü keçib, bu sənətin Bəhram Mansurov, Qurban Pirimov kimi nümayəndələri olub. Amma Azərbaycan tarı bu gün özünün intibah dövrünü yaşamaqdadır. Ərəb dilində gözəllik mənasını verən Əhsən adı tarzənin həyatını gözəlləşdirib. İfaçının bəxti onda gətirib ki, onun Mirzə Mənsurov, Ənvər Mənsurov kimi ustadları olub. Bu gün də biz Əhsən Dadaşovun improvizələrini, çalğılarını heyranlıqla dinləyirik". Rafael Hüseynov tarzənin bəstəkarlıq yaradıcılığı ilə bağlı fikrilərini də bölüşdü. Diqqətə çatdırdı ki, onun bəstələdiyi rəng və təsniflər bu gün də öz aktuallığını itirmədən sevilir.

Tarzənin tələbəsi, Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi Azərbaycan musiqi mədəniyyətinin və xalq musiqisinin inkişafında Əhsən Dadaşovun xidmətlərindən danışdı. Vurğuladı ki, tarzənin yaratdığı sənət hələ neçə-neçə əsrlər yaşayacaq və bu sənəti seçənlər onun ifaçılıq yolundan ibrət götürəcəklər.

Tədbirdə daha sonra kitabın müəllifi Rafiq Hacıyev, professor Arif Əsədullayev, Xalq artisti Şəfiqə Eyvazova çıxış edərək xatirələrini bölüşdülər.

Azərbaycan Dövlət Televiziya və Radiosunun Əhsən Dadaşov adına "Xatirə" xalq çalğı alətləri ansamblının ifasında (bədii rəhbər Adil Bağırov) tarzənin "Rahab rəngi" təqdim olundu.



Tədbirin bədii hissəsində həmçinin xalq artistləri Teyyub Aslanov, Mircavad Cəfərov, əməkdar artistlər Nuriyyə Hüseynova, Şəhriyar İmanov, xanəndə Mirələm Mirələmov çıxış etdilər. Milli Konservatoriyanın tərkibində fəaliyyət göstərən "Əhsən" xalq çalğı alətləri ansamblının müşayiəti ilə (bədii rəhbər Şəfiqə Eyvazova) Əhsən Dadaşovun "Rast rəngi", "Şüştər rəngləri" Şəfiqə Eyvazova və Mehri Əsədullayevanın, eləcə də "İlk məhəbbət", "Peyman etdik" mahnıları müğənnilərin ifasında səsləndi.

Sonda mərhum tarzənin qızı Xanım Məhərrəmova çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirdi.

**Lalə AZƏRİ**

Bakıda bir muzey var

## Azərbaycan Təbabəti Muzeyi



Paytaxtımızda fəaliyyət göstərən muzeylər silsiləsindən bu yazıda Azərbaycan Təbabəti Muzeyi barədə söhbət açacağıq.

Azərbaycan Təbabəti Muzeyi respublika Səhiyyə Nazirliyinin əmri ilə 1984-cü ildə yaradılıb. Rəsmi açılışı isə iki il sonra – 29 yanvar 1986-cı ildə gerçəkləşib.

Muzey keçmiş Qaraşəhər müalicəxanasının binasında (Xətai rayonu Nəcəfqulu Rəfiyev küçəsi 56) yerləşir. Bu həmin səhiyyə müəssisəsi idi ki, görkəmli dövlət xadimi, ədib və həkim Nəriman Nərimanov Həştərxan sürgünündən qayıdandan sonra 1914-1917-ci illərdə burada səhiyyə xidməti göstərib. Nərimanovun muzeyin giriş hissəsinə vurulmuş barelyefi üzərində də bu barədə qeydlər var.

***

Bu günlərdə ekspozisiya ilə tanış olmaq üçün muzeyə baş çəkdik. Muzeyin direktoru Sadatxan Əliyev bildirdi ki, kompleksin ekspozisiyası doqquz zalda yerləşdirilib. Birinci zalda Hippokratın, İbn Sinanın büstləri, İbn Sinanın "Həkim elminin qanunu" əsərinin 1143-cü ilə aid əlyazmasının fotosurəti nümayiş etdirilir.

İkinci zalda xalq təbabətindən bəhs edən məlumatlar, Qarabağda və digər bölgələrimizdə bitən dərman bitkilərindən nümunələr yer alıb. XIX əsrin II yarısında Rusiya və digər ölkələrin universitetlərində təhsil alan ilk azərbaycanlı həkimlərin – Əbdülxalıq Axundov, Bakıda ilk pulsuz müalicəxananın təşkilatçısı Məmmədrza Vəkilov, eləcə də Bəhram Axundov, Kərimbəy Mehmandarov və İbrahim Rəhimovun, ilk sanitar həkim Mustafa Şərifovun portretləri, diplomları, monoqrafiyaları və dissertasiya işləri də burada nümayiş etdirilir. Zalda həmçinin tanınmış pediatr, Əməkdar elm xadimi, professor Əbülfəz Qarayev haqqında ayrıca stend qurulub. Stenddə onun tibb sahəsində xidmətləri, elmi araşdırmaları ilə bağlı məlumat yer alıb. Görkəmli alim, Kazan Universitetinin professoru Mirzə Kazım bəyə ayrıca bölmə həsr olunub. Xüsusi diaqramda biz 1917-ci il inqilabına qədər Bakının neft mədənlərində işləyən fəhlələrin ağır həyat şəraiti ilə tanış oluruq. Eyni zamanda bu zalda Azərbaycanın ilk diplomlu qadın həkimləri haqqında məlumat almaq olar.

Növbəti zalda ilk olaraq Bakı neft sənayesi işçiləri qurultayının qərarına əsasən, müasir tibbi avadanlıqlarla təchiz olunmuş ilk Azərbaycan tibb müəssisələrinin təşkilinə həsr olunmuş eksponatlar qarşımıza çıxır. Burada müxtəlif xalqlara mənsub həkimlərin fəaliyyətinə də yer verilib. Zalda həmçinin Ramanı feldşer məntəqəsinin fotosu, XX əsrin əvvəllərində Rusiyanın müxtəlif şəhərlərində təhsil almış azərbaycanlı həkimlərin fotoşəkilləri diqqəti cəlb edir. Görkəmli cərrah, Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti Mirəsədulla Mirqasımova, ölkəmizdə pediatriyanın əsasını qoyan tibb elmləri doktoru Yevsey Gindesə, Azərbaycanın ilk Səhiyyə naziri olmuş Xudadat bəy Rəfibəyova da ayrıca bölmə həsr olunub. Stendlərdə ötən əsrin əvvəllərində həkimlərimizin işlətdikləri tibbi alətlər də marağımıza səbəb olur.

Dördüncü zalda sovetləşmədən (1920) sonra Azərbaycan İnqilab Komitəsinin apteklərin milliləşdirilməsi haqqında ilk dekreti, Bakı Dövlət Universitetinin ilk rektorları V.İ.Razumovski və S.N.Davidenkovun fotoşəkilləri nümayiş etdirilir. Eyni zamanda universitetin Tibb fakültəsinin ilk buraxılışı, professor-müəllim heyəti, ilk elmi tədqiqat institutlarının fəaliyyəti ilə də tanış olmaq mümkündür. Burada universitetin ilk azərbaycanlı rektoru Tağı Şahbaziyə və N.Nərimanova xüsusi stendlər həsr olunub. Zalda N.Nərimanov və dövlət xadimi Qəzənfər Musabəyovun büstləri qoyulub.

Beşinci zalda keçmiş SSRİ-nin Xalq Səhiyyə komissarı N.A.Semaşko ilə Azərbaycan Səhiyyə komissarı Möhsün İsrafilbəyovun (Qədirli) birlikdə portreti ilə qarşılaşırıq. 1934-1936-cı illərdə kənd əhalisi üçün tibbi xidməti yaxşılaşdırmaq məqsədilə təşkil olunmuş "Göyçay hərəkatı"na ayrıca bölmə həsr edilib. Bu zalda həmçinin Azərbaycan Tibb İnstitutunun ayrı-ayrı kafedraları, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun təşkili və fəaliyyətinə dair, habelə Qırmızı Aypara Cəmiyyətinin təşkili ilə bağlı materiallar yer alıb.



Böyük Vətən müharibəsində ön və arxa cəbhədə borclarını şərəflə yerinə yetirən tibb işçiləri haqqında maraqlı eksponatların nümayiş olunduğu altıncı zala daxil oluruq. Burada Kerç boğazını keçərkən göstərdiyi igidliyə görə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Səməd Abdullayevin, 1945-ci ildə Almaniyada yaralıları xilas edərkən həlak olan Sovet İttifaqı Qəhrəmanı Məmməd Məmmədovun fotoşəkilləri nümayiş etdirilir. Zalda Bakı vağzalına sanitar qatarı ilə yaralıların gətirilməsi, həmçinin görkəmli səhiyyə xadimi, akademik Mustafa Topçubaşovu əməliyyat zamanı əks etdirən maket-diaqramlar ilə tanış oluruq. Diqqəti cəlb edən eksponatlardan biri də partizan-həkim Aliyə Rüstəmbəyovanın "Baba" partizan dəstəsindəki fəaliyyətindən bəhs edən materiallardır.

Yeddinci zalda Böyük Vətən müharibəsindən sonrakı dövrdə respublikada müalicə-profilaktika müəssisələrinin tikilməsinə və bərpasına həsr olunan eksponatlar yer alıb. 1935-1938-ci illərdə Azərbaycan Tibb İnstitutuna rəhbərlik etmiş və Azərbaycan SSR Xalq Səhiyyə komissarı olmuş Əziz Əliyevə həsr olunmuş xüsusi stend də maraq doğurur.

İndi isə ümummilli lider Heydər Əliyevə həsr olunan səkkizinci zaldayıq. Respublikamızda səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində əldə edilən bir çox uğurlar ulu öndərin adı ilə bağlıdır. Heydər Əliyevin müxtəlif konfranslarda iştirakı, tibb işçiləri ilə, dünya şöhrətli musiqiçi M.Rostropoviç, məşhur səhiyyə xadimi İhsan Doğramacı və başqaları ilə görüşlərini əks etdirən fotoşəkillər bu zalda nümayiş etdirilir. Azərbaycanda oftalmologiya elminin inkişafında əvəzsiz xidmətləri olan Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın fotoşəkilləri, elmi fəaliyyətinə dair sənədlər də bu zalda yer alıb.

Muzeyin sonuncu zalında Prezident İlham Əliyevin respublikamızda səhiyyə sahəsinin inkişafına göstərdiyi diqqət və qayğı əks olunub. Dövlət başçısının iştirakı ilə istifadəyə verilən yeni tikilmiş və ya əsaslı təmir olunmuş tibb ocaqlarının fotoşəkilləri təqdim edilir. Stendlərdə Diaqnostika Mərkəzi, Milli Oftalmologiya Mərkəzi, Milli Onkologiya Mərkəzi, Bakı Sağlamlıq Mərkəzi ilə yanaşı, regionlarda əhaliyə xidmət göstərən müasir səhiyyə ocaqlarının açılışı zamanı çəkilən şəkillər də nümayiş etdirilir.

***

Ekskursiya aparıcısı Zemfira Dadaşovanın sözlərinə görə, muzeyin ekspozisiya zallarında minə yaxın eksponat nümayiş olunur. Muzey ziyarətçilər tərəfindən maraqla qarşılanır. Azərbaycan Tibb Universitetinin tələbələri, Həkimləri Təkmilləşdirmə İnstitutunun həkimləri, orta ixtisas tibb təhsili müəssisələrinin tələbələri, xarici qonaqlar və yerli vətəndaşlar müntəzəm olaraq muzeyi ziyarət edirlər.

Muzeyin baş mühafizi Sevinc Maniyeva bildirir ki, fondda ümumilikdə 13 845 əşya saxlanılır. Onlardan 8162-si əsas, 5683-ü köməkçi fonda aiddir. Fond daim yeni materiallarla zənginləşir. Qədim tibb alətlərinin və materialların toplanması məqsədilə müntəzəm ezamiyyətlər təşkil olunur.

**Nurəddin MƏMMƏDLİ**

# “Nəsimi” filmi rəqəmsal formatda nümayiş etdirildi

Xəbər verdiyimiz kimi, “Nəsimi ili”nə töhfə olaraq dahi şair haqqında 1973-cü ildə “Azərbaycanfilm” kinostudiyasında lentə alınan film Mədəniyyət Nazirliyinin dəstəyi ilə rəqəmsal formatda yenilənib. Layihə “Balans” milli rəqəmsal studiyası tərəfindən həyata keçirilib.

Dekabrın 20-də Nizami Kino Mərkəzində “Nəsimi” filminin yenilənmiş versiyası tamaşaçılara təqdim olundu.

Tədbiri giriş sözü ilə açan “Balans” studiyasının rəhbəri Vahid Mustafayev qeyd etdi ki, studiya bundan əvvəl Tofiq Tağızadənin “Mateo Falkone” və Ağarza Quliyevin “Ulduz” bədii filmlərini rəqəmsal formatda yeniləyib. Görkəmli rejissor Həsən Seyidbəylinin “Nəsimi” filmi bu layihə üzrə yenilənən üçüncü filmdir. Onun sözlərinə görə, Mədəniyyət Nazirliyi ilə birgə layihəyə əsasən daha 15 ekran əsəri bərpa olunacaq.



“Nəsimi” filmində Nəsiminin ustadı Nəiminin qızı Fatimə obrazını yaratmış Xalq artisti Xalidə Quliyeva bu rola necə seçilməsi haqqında danışdı: “Film çəkilən zaman 19 yaşım vardı. Həsən Seyidbəyli məni çağırıb dedi ki, apar, ssenarini oxu. Hansı obrazı bəyənsən, ona da çəkiləcəksən. Mən valideynlərimi çox erkən itirmişdim və Fatimənin ağrı-acısı mənə yad deyildi. Buna görə də Həsən Seyidbəyliyə dedim ki, Fatiməni canlandırmaq istəyirəm. O da etiraz etmədi”.

Mərasimdə daha sonra Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev və Xalq artisti Əbdül Mahmudov çıxış edərək filmin rəqəmsal formatda yenilənməsinə görə “Balans” studiyasına və bu layihəyə dəstək verdiyinə görə Mədəniyyət Nazirliyinə təşəkkürlərini bildirdilər.

Sonda “Nəsimi” bədii filminin yenilənmiş versiyası nümayiş olundu.

Qeyd edək ki, kinorejissor Həsən Seyidbəyli filmi Xalq yazıçısı İsa Hüseynovun ssenarisi əsasında ekranlaşdırıb. Filmin quruluşçu operatoru Rasim İsmayılov, quruluşçu rəssamları Məmməd Hüseynov və Mais Ağabəyov, bəstəkarı Tofiq Quliyevdir. Baş rolu Rasim Balayevin oynadığı filmdə Yusif Vəliyev, İsmayıl Osmanlı, Səməndər Rzayev, Məmmədrza Şeyxzamanov və başqa məşhur aktyorlar çəkilib.

**Nurəddin MƏMMƏDLİ**

# Azərbaycan-Türkiyə qardaşlığına həsr olunan ədəbi-musiqili gecə

Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında “Azərbaycanlı şairlərin Türkiyəyə həsr olunan şeirləri” adlı ədəbi-musiqili gecə keçirilib.

Tədbir Mədəniyyət Nazirliyi, Bakı Yunus Əmrə İnstitutu və Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşıb.

Bakı Yunus Əmrə İnstitutunun direktoru Cihan Özdemir bildirib ki, qardaş ölkələrimiz sovet dövründə uzun müddət bir-birindən ayrı düşüb. Bunun nəticəsində bir boşluq yaranıb. Məqsədimiz mədəni əlaqələri daha da genişləndirmək və bu boşluğu doldurmaqdır.

Bakı Türk Anadolu Liseyinin direktoru Nurullah Yazıçı da belə tədbirlərin iki qardaş ölkə arasında mədəni əlaqələrin gücləndirilməsinə töhfə verdiyini söyləyib.

Gecədə Azərbaycanın görkəmli şairlərinin qardaş ölkəyə həsr etdiyi şeirlər söylənilib. Bakı Türk Anadolu Liseyinin musiqi qrupunun ifasında mahnılar səsləndirilib.

# Elçin Hüseynbəylinin hekayələr kitabı rus dilində

Yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəylinin hekayələr kitabı rus dilində çap olunub. Xalq yazıçıları Anar və Çingiz Abdullayevin ön sözü ilə açılan kitaba on beş hekayə daxildir.

Toplu Azərbaycan Yazıçılar Birliyinin “aybKitab” layihəsi çərçivəsində “Mütərcim” nəşriyyatında işıq üzü görüb. Layihənin rəhbəri şair Xəyal Rza, kitabın redaktoru Vəzir Qasımovdur.

Bu, E.Hüseynbəylinin rusca nəşr edilən ikinci kitabıdır. Yazıçının “On üçüncü həvari – yaxud 141-ci Don” kitabı 2011-ci ildə rus dilində çap olunub.

# “Əl-Cəzirə” kanalında Azərbaycanla bağlı filmlər

“Əl-Cəzirə” Media Şəbəkəsinin Beynəlxalq Avrasiya Mətbuat Fondu ilə birlikdə hazırladığı Azərbaycana həsr edilmiş sənədli filmlərin telekanalın “Müsafir” proqramında yayımı davam edir.



Bu barədə Beynəlxalq Avrasiya Mətbuat Fondunda (BAMF) keçirilən tədbirdə məlumat verilib. Qeyd olunub ki, filmlər Azərbaycanın tarixi, mədəniyyəti, təbiəti, qədim ənənələri, yaşam tərzi və turizm potensialını ərəb dünyasına çatdırmaq məqsədi daşıyır. Hər biri 25 dəqiqədən ibarət olan 5 film, Bakı və Naxçıvan şəhərləri daxil olmaqla, Azərbaycanın əksər regionlarını əhatə edir. İyunun 20-dən iyulun 12-dək Azərbaycanda səfərdə olan “Əl-Cəzirə”nin “Müsafir” proqramının çəkiliş heyəti Beynəlxalq Avrasiya Mətbuat Fondunun əməkdaşlarının yardımı və texniki dəstəyi ilə ölkəmizin gəzməli, görməli yerlərini, milli mətbəxini, tarixi irsini, folklorunu, musiqisini lentə alıb. Noyabrın 29-dan başlayaraq hər şənbə günü nümayiş olunan filmlər sosial şəbəkələrdə də yayılaraq böyük maraq doğurub. Filmin Naxçıvanla bağlı növbəti bölümü dekabrın 21-də efirə gedib.

Tədbirdə Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev ölkəmizin ərəb dünyasında tanıdılması baxımından filmlərin önəmini qeyd edib: “Bu vaxtadək İspaniya, Hollandiya, Malayziya, Vyetnam və digər ölkələrdə çəkilişlər aparan “Müsafir”in peşəkar komandası ilə birlikdə işləmək və ölkəmizi təqdim etməkdən qürur duyuruq. Bu, yüksək peşəkar komanda tərəfindən ölkəmizi ətraflı, əhatəli dünyaya təqdim edən beynəlxalq sənədli filmdir. Proqramın aparıcısı Hazim Abuvaftanın və baş prodüser Ziyad Calalın təqdimatı ilə hazırlanan filmin çəkiliş üzrə direktoru Nikolas Libersaledir”. Diqqətə çatdırılıb ki, BAMF “Əl-Cəzirə” Media Şəbəkəsi ilə birgə müxtəlif layihələrin müəllifidir.

Mədəniyyət Nazirliyi İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Elnarə Quliyeva çıxış edərək Beynəlxalq Avrasiya Mətbuat Fondunun bu kimi uğurlu layihələrinin milli mədəni incilərimizin, mədəniyyətimizin təbliğində əhəmiyyətini vurğulayıb. Bildirib ki, Mədəniyyət Nazirliyi mədəniyyətimizə töhfə verən hər bir layihəyə dəstək olur və bu cür layihələrin davamlı olmasını diləyir”.

# Bakının memarlıq mənzərəsində parlaq imza

XX yüzilliyin birinci yarısında memarlıqda təzahür edən avanqard üslub bu sahədə mühüm hadisə hesab olunurdu. Bu sənət cərəyanı paytaxtımızın memarlığında da özünü büruzə verirdi. Həmin dövrdə Azərbaycan memarlığında yeni cığır açan sənətkarlardan biri də memarlıq tarixçisi, Əməkdar incəsənət xadimi, SSRİ Dövlət mükafatı laureatı, akademik Sadıq Dadaşov olub.

Sadıq Ələkbər oğlu Dadaşov 1905-ci ildə Bakıda dünyaya göz açıb. Məktəb illərində rəssamlıq və memarlıqla dərindən maraqlanıb. Onu da qeyd edək ki, Sadıq Dadaşovun gənclik illəri həmyaşıdı və yaxın dostu, sonralar görkəmli rəssam kimi tanınan SSRİ Xalq memarı Mikayıl Hüseynovla birlikdə keçir. Onlar 1920-ci ildə Realnı məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinin memarlıq şöbəsinə daxil olurlar.

Tələbəlik illərində S.Dadaşov institutun nəzdində fəaliyyət göstərən memarlıq laboratoriyasına rəhbər təyin edilir. Laboratoriyada çalışdığı zaman təkcə institutda keçirilən dərslərlə kifayətlənmir, tanınmış dünya memarlarının layihələri ilə yaxından tanış olur, bir neçə müsabiqədə iştirak edir. 1926-cı ildə dahi Azərbaycan şairi



Nizami Gəncəvinin abidəsi ilə bağlı elan edilən müsabiqədə S.Dadaşovun M.Hüseynovla birgə işlədiyi layihə birinci mükafata layiq görülür. Gənc memarlar “Bakıda kitabxana və mədəniyyət sarayı” mövzusunda diplom işini uğurla müdafiə edirlər. Pedaqoji kollektivin yekdil qərarına əsasən, hər iki memar institutda assistent kimi saxlanılır.

Gənc dostlar Şirvanşahlar Sarayı kompleksinin, Naxçıvan şəhərində Möminə xatın, Yusif Küseyiroğlu türbələri və Qarabağlar türbəsi yanındakı minarəli tağı, Bərdə şəhərindəki “Nüşabə” türbəsi və onlarla digər Orta əsr memarlıq abidəsini ilk dəfə tədqiq edirlər.

S.Dadaşov institutu bitirdikdən sonra dörd il ərzində (1929-1933) 23 tikilinin layihəsini verir. Onun 1937-ci ildə M.Hüseynovla birlikdə layihələndirdiyi “Nizami” kinoteatrının binası və onunla üz-üzə inşa olunmuş inzibati bina memarlığımızın klassik əsərləri kimi bu gün də yüksək qiymətləndirilir. Memar 1938-ci ildə Bakı Musiqi Akademiyasının binasını layihələndirir. Burada dahi bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin ucaldılması, memarlıqla heykəltəraşlığın həm məzmun, həm də sənətkarlıq nöqteyi-nəzərindən bir-birini tamamlayan bitkin kompozisiya həmahəngliyi yaradır.

S.Dadaşovun memar kimi sənətinin sorağı qısa müddətdə respublikanın hüdudlarını aşır. Onun böyük yaradıcılıq nailiyyətlərindən biri (M.Hüseynovla birgə) Moskva şəhərindəki Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi (XTNS) kompleksinin Azərbaycan pavilyonu idi. Bu layihəyə görə hər iki memar 1939-cu ildə SSRİ Dövlət mükafatına layiq görülür.

S.Dadaşov 1940-cı ildə həmkarı M.Hüseynovla birlikdə N.Gəncəvi adına Ədəbiyyat Muzeyinin binasını layihələndirir. Mütəxəssislər bu layihənin memarın yaradıcılığında önəmli yer tutduğunu bildirirlər.

Eyni zamanda Azərbaycan memarlıq irsinin ilk elmi tədqiqatçısı olan görkəmli sənətkar bu istiqamətdə diqqətəlayiq əsərlər yazıb. “Bakıda Azərbaycan memarlıq abidələri”, “Azərbaycan sovet memarlığı”, “Bakının Şirvanşahlar Saray ansamblı” və Azərbaycan memarlığı ilə bağlı yazmış olduğu çoxsaylı elmi məqalə və konfrans materialları bu gün də etibarlı mənbə kimi əhəmiyyətini qoruyub saxlayır.

Sənətkar 1944-cü ildə Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Memarlıq İşləri İdarəsinin ilk rəisi təyin edilir. Onun fəaliyyəti yüksək qiymətləndirilir, “Əməkdar incəsənət xadimi” fəxri adı, “Lenin”, “Qırmızı Əmək Bayrağı” ordenləri, medallarla təltif olunur. 1941-ci ildə SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, 1945-ci ildə yeni yaradılan Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilir.

Sadıq Dadaşov 24 dekabr 1946-cı ildə vəfat edib. O, bütün bu uğurlara 41 illik qısa ömründə nail olmuşdu. Ömür vəfa etsəydi, Azərbaycan memarlığına, bu sahənin öyrənilməsinə daha böyük töhfələr verə bilərdi…

**Savalan FƏRƏCOV**

## Xatirə təqvimi — 23-26 dekabr

### Azərbaycan

**23 dekabr 1911** – Şərqşünas, tərcüməçi, professor, Əməkdar elm xadimi Məmməd Mübariz Əli oğlu Əlizadə (1911 – 9.4.1994) anadan olub.

**23 dekabr 1913** – Əməkdar artist İmamverdi Salman oğlu Bağırov (1913 – 6.5.1985) anadan olub.

**23 dekabr 1923** – Əməkdar incəsənət xadimi, rejissor Hüseyn Musa oğlu Sultanov (1923 – 30.3.1993) anadan olub.

**23 dekabr 1927** – Əməkdar mədəniyyət işçisi, aktyor Nəcəf Abbas oğlu Həsənzadə (1927-2012) Bakıda doğulub.

**23 dekabr 1945** – Əməkdar artist Sadiq Əliabbas oğlu İbrahimov (1945 – 20.8.2010) Bakıda anadan olub. Akademik Milli Dram Teatrının aktyoru olub.

**23 dekabr 1946** – Xalq artisti, balerina, Dövlət mükafatı laureatı Çimnaz Məmməd qızı Babayeva (1946 – 23.12.2019) Bakıda doğulub. Akademik Opera və Balet Teatrının solisti olub, teatrda baletmeyster kimi fəaliyyət göstərib.

**24 dekabr 1872** – Yazıçı-publisist, pedaqoq Ömər Faiq Nemanzadə (1872 – 10.10.1937) Gürcüstanda, Ahıska (Axalsıx) qəzasının Azqur kəndində doğulub. “Şərqi-rus” qəzetinin, “Molla Nəsrəddin” jurnalının yaradıcılarındandır.

**24 dekabr 1926** – Əməkdar artist, balaban və klarnet ifaçısı Bəhruz Mahmud oğlu Zeynalov (1926 – 25.5.1998) Bakıda anadan olub.

**24 dekabr 1939** – Şair, yazıçı, Əməkdar mədəniyyət işçisi Məmməd Muxtar oğlu Aslan (1939 – 23.9.2015) Kəlbəcər rayonunun Laçın kəndində doğulub.

**24 dekabr 1954** – Xalq artisti Natalya Valeh qızı Tağıyeva (1954 – 16.1.2005) anadan olub. Rus Dram Teatrının aktrisası olub, filmlərdə (“Dədə Qorqud”, “Onun bəlalı sevgisi” və s.) çəkilib.

**25 dekabr 1906** – Əməkdar incəsənət xadimi, kinorejissor, operator Əlisəttar Ələsgər oğlu Atakişiyev (1906 – 7.11.1990) Bakıda anadan olub. “Bir qalanın sirri”, “Bizim küçə”, “Sehrli xalat” və s. filmlərə quruluş verib.

**25 dekabr 1906** – Filologiya elmləri doktoru, professor Əli Abdulla oğlu Sultanlı (1906-1960) Naxçıvanda doğulub.

**25 dekabr 1908** – Xalq artisti, teatr rejissoru, aktyor İbrahim (Miribrahim) Tağı oğlu Həmzəyev (1908-1982) Gəncə şəhərində doğulub.

**25 dekabr 1909** – Xalq artisti, teatr rejissoru Ələsgər Məmmədtağı oğlu Şərifov (1909 – 8.9.1982) Şamaxıda doğulub.

**25 dekabr 1923** – Əməkdar incəsənət xadimi, rejissor Hüseyn Musa oğlu Sultanov (1923 – 31.3.1993) Tovuz rayonunda anadan olub.

**25 dekabr 1934** – Ədəbiyyatşünas, şair-publisist Famil Mehdi (Famil Ağalar oğlu Mehdiyev; 1934 – 18.9.2003) Ağdam rayonunun Sarıhacılı kəndində doğulub.

**25 dekabr 1935** – Xalq yazıçısı Yusif Səmədoğlu (Vəkilov; 1935 – 17.8.1998) anadan olub. “220 saylı otaq”, “Qalaktika” hekayələr toplusu, “Qətl günü” romanının müəllifidir. “Yeddi oğul istərəm” filminin ssenarisini yazıb.

**25 dekabr 1941** – Xalq artisti Zemfira Məmmədəli qızı Əliyeva (1941 – 16.11.1995) Şəmkirin Morul kəndində doğulub.

**25 dekabr 1954** – Əməkdar incəsənət xadimi, şair Ağalar Həmzə oğlu Mirzə (1954 – 5.3.2008) Şabran rayonunda doğulub.

**25 dekabr 2016** – Xalq artisti, tanınmış xanəndə Ağaxan Minaxan oğlu Abdullayev (6.2.1950 – 2016) vəfat edib.

**26 dekabr 1910** – Yazıçı Yusif Şirvan (Yusif Əsgər oğlu Əsgərov; 1910-1979) Şamaxıda anadan olub.

**26 dekabr 1919** – Xalq artisti, rəqqasə Əminə Paşa qızı Dilbazi (1919 – 30.4.2010) Qazaxda anadan olub.

**26 dekabr 1950** – Xalq artisti Nuriyyə Əliağa qızı Əhmədova (1950 – 10.10.2015) Şəkidə anadan olub.

### Dünya

**23 dekabr 1858** – Rejissor, dramaturq, Moskva Bədaye Teatrının qurucularından Vladimir İvanoviç Nemiroviç-Dançenko (1858-1943) anadan olub.

**24 dekabr 1798** – Polyak şairi Adam Miskeviç (Adam Bernard Mickiewicz; 1798 – 26.11.1855) anadan olub.

**24 dekabr 1867** – Türk şairi Tofiq Fikrət (Mehmet Tevfik Fikret; 1867-1915) İstanbulda doğulub.

**24 dekabr 1906** – İngilis yazıçısı, detektiv əsərlər müəllifi Ceyms Hedli Çeyz (James Hadley Chase – Rene Brabazon Raymond; 1906-1985) anadan olub.

**25 dekabr 1813** – Alman şairi Fridrix Vilhelm Veber (Friedrich Wilhelm Weber, 1813-1894) anadan olub.

**26 dekabr 1891** – Amerika yazıçısı və rəssamı Henri Miller (Henry Valentine Miller; 1891-1980) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 25-27 dekabr

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 25 dekabr | P.Çaykovski – “Şelkunçik” (balet) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 27 dekabr | Yeni il şənliyi | 10.00, 12.00, 14.00, 16.00 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 27 dekabr | Yeni il şənliyi | 10.30, 12.30, 14.30, 16.30 |

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 26 dekabr | C.Ostin – “Qürur və qərəz” | 19.00 |
| 27 dekabr | K.Qoldoni – “Sinyor Todero-xuliqan” | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 26-27 dekabr | R.Hovard - “Qrinç 2020” | 12.00, 14.00, 16.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 26-27 dekabr | “Qış nağılı” | 12.00, 14.00, 16.00, 18.00 |

**Heydər Əliyev Sarayı (Bülbül pr. 35)**

| | | |
|---|---|---|
| 27 dekabr | Firəngiz Əlizadə - “Nasimi passion” vokal-xoreoqrafik tamaşa | 19.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 26 dekabr | Azərbaycan Dövlət Uşaq Filarmoniyasının Uşaq-gənclər xalq çalğı alətləri orkestri (bədii rəhbər və baş dirijor Ağaverdi Paşayev) | 19.00 |

**Bakı Dövlət Sirki (S.Vurğun küç. 68)**

| | | |
|---|---|---|
| 27 dekabr | “Buz üzərində sirk tamaşaları” | 12.00, 15.00, 19.00 |

№94 (1679)
25 dekabr 2019
www.medeniyyet.az

# Moskvada Azərbaycan bəstəkarlarının kamera musiqisi səslənib

P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında "Azərbaycan bəstəkarlarının kamera musiqisi" adlı konsert təşkil olunub.

Tədbiri Azərbaycanın Rusiyadakı səfirliyinin mədəniyyət məsələləri üzrə attaşesi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nigar Axundova açaraq, ölkəmizdə klassik musiqinin inkişaf tarixindən danışıb. O, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadəni təqdim edərək bildirib ki, dövrümüzün məşhur bəstəkarlarından olan Firəngiz xanımın parlaq, füsunkar, qəlboxşayan musiqisi dünyanın bir çox ölkələrində sevilərək ifa olunur. Bəstəkarın baletləri Helsinki və Nyu-York, Berlin və İstanbul səhnələrində yer alıb.



N.Axundova deyib: "Dahi Qara Qarayevin tələbəsi olan Firəngiz Əlizadə Şərq musiqisini dünyaya yeni tərzdə təqdim edib, muğam fəlsəfəsinin sirlərini açıb".

Daha sonra Firəngiz Əlizadə Moskva səhnəsində çıxış edəcək gənc musiqiçiləri təqdim edərək bildirib ki, onlar müxtəlif beynəlxalq müsabiqələrin laureatlarıdırlar. O, Azərbaycanda istedadlı gənc musiqiçi və bəstəkarlar nəslinin yetişdiyini vurğulayıb.

Konsertdə Ümidə Abbasova (skripka), Emin Hüseynov (skripka), Nəzrin Aslanlı (skripka), İlqar Rzayev (alt), Orxan Hüseynov (violonçel), Səidə Tağızadə (fortepiano), Tural Məmmədlinin (fortepiano) ifasında Firəngiz Əlizadənin "Muğamsayağı", Qara Qarayevin skripka və fortepiano üçün sonatası, Fikrət Əmirovun "1001 gecə" baletindən rəqs, Oqtay Zülfüqarovun skripka və fortepiano üçün "Skerso"su və digər əsərlər səslənib. Gecədə Xalq artisti Firəngiz Əlizadə də fortepiano arxasına keçərək ifası ilə tamaşaçıların alqışını qazanıb.

# Gürcüstanda Nəsiminin 650 illiyinə həsr olunan tədbir



Azərbaycanın dahi şair və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan daha bir tədbir ölkəmizin Gürcüstandakı səfirliyində keçirilib.

Tədbirdə paytaxt Tbilisi ilə yanaşı, Rustavi və Marneuli şəhərlərindən, Qardabani, Bolnisi, Kaspi rayonlarından gəlmiş ziyalılar, tələbələr iştirak ediblər.

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov çıxış edərək şairin yaradıcılığından danışıb. Bildirib ki, "Nəsimi ili" çərçivəsində təkcə Azərbaycanda deyil, dünyanın bir sıra ölkələrində də silsilə tədbirlər keçirilir.

Sonra Nəsiminin 650 illiyinə həsr olunan "Məndə sığar iki cahan" adlı videoçarx nümayiş etdirilib.

Professor Mahmud Hacıxəlilov Nəsiminin həyat və yaradıcılığının müxtəlif dövrləri barədə məruzə ilə çıxış edib. Bildirib ki, Nəsimi Azərbaycan xalqının dünyaya bəxş etdiyi böyük mütəfəkkirdir.

Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Ramin İgidov, yazıçı-publisist Əli Abbas, Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri Nizami Məmmədzadə, Akif Xansultanlı, AZƏRTAC-ın xüsusi müxbiri Xətayi Əzizov və başqaları çıxış edərək böyük şairin yaradıcılığı, ictimai fikir tarixində rolu barədə fikirlərini bölüşüblər.

# Ankarada görkəmli qırğız sənətkarının 70 illiyi qeyd olunub

Ankarada görkəmli qırğız balet ustası Çolponbek Bazarbayevin anadan olmasının 70-ci ildönümü münasibətilə təntənəli tədbir keçirilib.

Tədbirlə bağlı Türkiyəyə səfər edən Qırğızıstan Mədəniyyət, Məlumat və Turizm nazirinin müavini Baktıbek Sekimovun rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un qərargahında olub.

Baş katib Düsen Kaseinovun iştirakı ilə keçirilən görüşdə 2019-cu ildə Oş şəhərinin "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunması, o cümlədən bu ilin böyük Azərbaycan şairi Nəsimi və Türkiyənin el sənətkarı aşıq Veysəl ili kimi qeyd olunması məmnunluqla xatırlanıb. Qeyd olunan mövzularda keçirilən tədbirlərin mahiyyətindən bəhs edilib.

Düsen Kaseinov TÜRKSOY ilə Qırğızıstan arasında əlaqələri yüksək dəyərləndirib. Vurğulanıb ki, TÜRKSOY bundan sonra da türkdilli ölkələrin mədəniyyətinin təbliğinə töhfələrini əsirgəməyəcək.

**Mehparə SULTANOVA**
**Ankara**



# Los-Ancelesdə mətbəx mədəniyyətimizin təqdimatı

ABŞ-ın Los-Anceles şəhərində Azərbaycan mətbəxinə həsr olunmuş geniş tədbir keçirilib. Ölkəmizin Los-Ancelesdəki Baş konsulluğunun və UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının birgə dəstəyi ilə reallaşan tədbirdə müxtəlif ölkələrin diplomatları, ictimaiyyət, elm və mədəniyyət xadimləri, diasporumuzun fəalları, həmçinin türk, yəhudi, Pakistan, İran, Koreya Respublikası, Vyetnam və digər icmaların rəhbərləri iştirak ediblər.

Qonaqları salamlayan Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev bu il UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının yaradılmasının 25 illiyinin qeyd olunduğunu bildirib. N.Ağayev Azərbaycan mətbəxinin zənginliyini ölkəmizin əsrarəngiz təbiətindən qaynaqlandığını vurğulayıb. O, Azərbaycanda dolmanın bişirilmə ənənələrinin qədim tarixə malik olduğunu qeyd edərək 2017-ci ildə milli mətbəximizin bu nümunəsinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edildiyini diqqətə çatdırıb.



Kaliforniyanın Örvayn Şəhər Şurasının üzvü Fərəh Xan bu ilin yazında ölkəmizə səfər edərək Azərbaycan haqda ən xoş təəssüratlarla geri döndüyünü, səfər zamanı Azərbaycan mətbəxinə heyran qaldığını və mətbəximizdə ən çox sevdiyi yeməyin məhz dolma olduğunu deyib.

Sonra Kaliforniyanın San Dieqo şəhərində fəaliyyət göstərən "Cafe 21" Azərbaycan restoranının sahibi İmran Cavadov ölkəmizdə dolmanın bişirilmə ənənələri və mətbəximizin müxtəlif dolma növlərindən bəhs edən təqdimatla çıxış edib.

Tədbir Azərbaycan musiqisindən nümunələr, Ləman Musayevanın ifasında Azərbaycan rəqslərinin ifası ilə davam edib. Qonaqlar "Cafe 21" restoranı tərəfindən hazırlanmış Azərbaycan mətbəxinin müxtəlif ləziz təamları, o cümlədən müxtəlif dolma çeşidləri ilə tanış olublar.

# Qaqauz elinin əlamətdar yubileyi

Bu il Moldova Respublikası Qaqauz Yeri muxtar qurumunun yaradılmasının 25 ili tamam olur. Bu münasibətlə Qaqauz Yerinin inzibati mərkəzi Komrat şəhərində və İstanbulda mərasimlər təşkil edilib.

Komratda təşkil edilən toplantıda Qaqauz muxtariyyətinin rəhbəri İrina Vlax, Türkiyə-Moldova Parlamentlərarası dostluq qrupunun sədri Mehmet Altay, Türkiyənin Moldovadakı səfiri Gürol Sökmensüer, Qaqauz Xalq Məclisinin sədri Vladimir Kısa, Moldovanın sabiq dövlət başçısı Petru Luçinski və çox sayda qonaqlar iştirak edib.

İrina Vlax burada etdiyi çıxışında Qaqauz Yeri muxtariyyətinin 23 dekabr 1994-cü ildə elan edildiyini bildirib: "Qaqauz xalqı çox uzun və çətin bir yol keçdi. 25 ildir ki, qaqauzlar Moldovada bir millət olaraq tanınır. Ona görə də bu gün yalnız Qaqauziya deyil, bütün Moldovanın bayramıdır".

Türkiyə-Moldova Parlamentlərarası dostluq qrupunun sədri Mehmet Altay isə çıxışında Türkiyənin Qaqauziyada bir sıra layihələr həyata keçirdiyini və qaqauz xalqına dəstək verməyə davam edəcəyini söyləyib.

Qaqauz Yerinin 25 illiyi ilə bağlı İstanbulda təşkil olunan tədbirdə Maltəpə Bələdiyyəsinin başqanı Ali Kılıç, Türkiyənin Azərbaycanda və Moldovadakı keçmiş səfiri Hulusi Kılıç, Qaqauziyadan gələn qonaqlar, sənətkarlar və folklor qrupu iştirak edib.

Hulusi Kılıç bildirib ki, Moldovada diplomatik fəaliyyəti dönəmində Qaqauz Yerində önəmli işlərin təşəbbüsçüsü və təşkilatçısı olub: "Azərbaycandan sonra Qaqauz elində soydaşlarımıza xidmət etmək imkanı məni hər zaman xoşbəxt edib".

Çıxışlardan sonra Qaqauz xalq topluluğunun ifasında xalq rəqsləri və mahnıları ifa edilib.

# Serbiyada "Türk dünyası musiqisi"

Serbiyanın Kuraqujevac şəhərində TÜRKSOY-un təşkilatçılığı ilə "Türk dünyası musiqisi" adlı bədii tədbir keçirilib.



Yunus Əmrə İnstitutunun yaradılmasının 10 illiyi münasibətilə təşkil olunmuş konsertin məqsədi türk dünyasının folklor incilərini serb xalqına tanıtmaq olub.

Proqramda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədən olan ifaçılar türk coğrafiyasının ən gözəl əsərlərini səsləndiriblər. Tamaşaçılar Azərbaycan və digər türk xalqlarının rəqslərini də izləyiblər.

# Qazaxıstan telekanalında ölkəmizlə bağlı veriliş

Qazaxıstanın "Atameken BusinessTV" televiziya kanalında ölkəmizlə bağlı veriliş yayımlanıb. "Sultanlar qürbətdə" adlı verilişdə Azərbaycan xalqının qonaqpərvərliyindən, mehriban dostluq münasibətlərindən bəhs olunub.

Azərbaycan və Qazaxıstan dostluq münasibətlərinin, ortaq dəyərlərinin qeyd edildiyi verilişdə Azərbaycan mətbəxindən, ölkədə kiçik və orta sahibkarlığa dəstəkdən, turizmin inkişafından ətraflı danışılıb, Bakının görməli yerlərindən bəhs olunub.

Həmçinin Bakı axşamlarının əsrarəngiz gözəlliyi, qədim sənaye və mədəniyyət mərkəzi sayılan Bakının Asiya və Avropa ilə qovşağında yerləşdiyi və dünyanın ən gözəl şəhərlərindən biri olduğu vurğulanıb. Azərbaycan paytaxtının dünya miqyaslı hadisələrin mərkəzinə çevrildiyi, məhz burada UNESCO-nun irs siyahısına daxil olan memarlıq obyektləri və Xəzərin ən iri limanının olduğu qeyd edilib.

# Müasir İncəsənət Muzeyində xeyriyyə sərgisi

Dekabrın 20-də Müasir İncəsənət Muzeyi və tanınmış rəssam Milena Nəbiyeva "Həyata ümid" adlı xeyriyyə layihəsi təqdim edib.



Layihə barədə məlumat verən Milena Nəbiyeva vurğulayıb ki, "Həyata ümid" – geniş ictimaiyyətə incəsənət vasitəsilə bir müraciətdir. Dekabrın 27-dək davam edəcək sərgi xeyriyyə aksiyası xarakteri daşıyır: sərgilənən əsərlərin satışından əldə edilən gəlir xəstəlikdən əziyyət çəkən Nərminə Kiçikbəyovanın müalicəsinə sərf olunacaq.

Ekspozisiyaya Altay Sadıqzadə, Arif Hüseynov, Əli Şəmsi, Nigar Nərimanbəyova, Milena Nəbiyeva, Səbinə Şıxlinskaya, Müseyib Əmirov, Yelena Haqverdiyeva və digər tanınmış Azərbaycan rəssamlarının 50-yə yaxın əsəri daxil edilib.

# Ssenari müsabiqəsinin nəticələri gələn ay elan ediləcək

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamının icrasına uyğun olaraq Mədəniyyət Nazirliyi tərəfindən noyabr ayının 1-dən elan olunmuş bədii və animasiya filmlərinin ssenari müsabiqəsinə layihələrin qəbulu noyabrın 25-də başa çatıb.

Müsabiqənin nəticələrinin dekabrın 20-dək açıqlanması nəzərdə tutulmuşdu.

Lakin müsabiqəyə marağın həddindən artıq yüksək olması və təqdim edilən ssenarilərin çoxluğu səbəbindən nəticələrin açıqlanma müddətinin uzadılması zərurəti yaranıb.

Müsabiqənin nəticələri 2020-ci il yanvar ayının 31-dək Mədəniyyət Nazirliyi www.mct.gov.az saytında və "Mədəniyyət" qəzetində elan olunacaq.

# Azərbaycanlı musiqiçi Fransada konsert verib

Fransanın Kolmar şəhərindəki "Yamaha" musiqi məktəbində azərbaycanlı bəstəkar, vokalist və xor dirijoru İlahə Ahuinin konserti olub.

İlahə Ahui Azərbaycanın "Sarı gəlin" və digər xalq mahnılarını ifa edib, həmçinin özünün yeni yazdığı "Vals" musiqisini səsləndirib. Onu sazda Sebastyan Duran müşayiət edib.

Kiçik yaşlarından xor solisti olan İlahə Ahui Bakıda piano sinfində oxuyub. 1999-cu ildə Fransanın Strasburq şəhərinə gələn İ.Ahui bir il sonra Kolmar şəhərinə köçüb və orada yaşayır. 2012-ci ildə Kolmar şəhərində konservatoriyanın dirijorluq və vokal sinfinə daxil olub. Yerli xor qruplarına dirijorluq edən İ.Ahui cari ildən Kolmardakı "Yamaha" musiqi məktəbində tədrisə başlayıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4965
**Sifariş:** 4327
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.